| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 02.02.2005 |
| QEYDİYYAT NÖMRƏSİ | 18 |
| ADI | “Elektrik enerjisindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2005, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 121) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 02.02.2005 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 120.000.000<br>170.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Elektrik enerjisindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən və “Bakıelektrikşəbəkə” səhmdar cəmiyyətini idarə etmək hüququna dair Müqavilə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 7 noyabr tarixli 597 nömrəli Fərmanının 3-cü bəndinin beşinci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Elektrik enerjisindən istifadə Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 2 fevral 2005-ci il
18

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Elektrik enerjisindən istifadə**

**QAYDALARI**

## 1. ÜMUMİ MÜDDƏALAR[1]

1.1. Bu Qaydalarda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**dövlət elektroenergetika müəssisəsi (vahid dövlət elektroenergetika sistemi**) - vahid mərkəzdən idarə olunan yüksək gərginlikli (110 kilovoltdan yuxarı) ötürücü elektrik şəbəkələrinin, onların dispetçer idarəetmə vasitələrinin və ona tabe olan enerji istehsalçılarının birliyi;

**enerjitəchizatı müəssisəsi** - ~~xüsusi~~ icazə əsasında əhalinin və digər istehlakçıların elektrik enerjisi ilə təchizatına təminat verən hüquqi şəxs;[2]

**müstəqil enerji istehsalçısı** - dövlətə, müxtəlif təsərrüfat sahələrinə və özəl təşkilatlara mənsub olub, onlara məxsus enerji şəbəkəsi ilə dövlət elektroenergetika müəssisəsinin və ya enerjitəchizatı müəssisələrinin vasitəsilə istehlakçıları elektrik və istilik enerjisi ilə təchiz edən hüquqi şəxs;

**elektrik enerjisi istehlakçısı** - müqavilə əsasında elektrik enerjisini satın alan və ondan elektrikqəbulediciləri vasitəsilə istifadə edən hüquqi və ya fiziki şəxs;

**abonent (əsas istehlakçı)** - elektrik qurğuları enerjitəchizatı müəssisəsinin şəbəkələrinə qoşulmuş və elektrik enerjisinin alqı-satqı müqaviləsini enerjitəchizatı müəssisəsi ilə bağlayan istehlakçı;

**subabonent** -elektrik qurğuları abonentinin (əsas istehlakçı) elektrik şəbəkələrinə qoşulmuş istehlakçı;

**məişət abonenti (əhali)** - yaşayış binalarının mənzillərində, yataqxanalarda, ~~xüsusi~~ yaşayış evlərində, həmçinin bağlarda, şəxsi qarajlarda məişət məqsədləri üçün elektrik enerjisindən istifadə edən istehlakçı; [3]

**sifarişçi** - verilmiş texniki şərtlərə əsasən elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizatı sxemini dəyişən elektrik qurğularının mülkiyyətçisi, yaxud bu qurğuları istifadəyə götürmüş hüquqi və fiziki şəxs;

**elektrik qurğuları** - elektrik enerjisinin istehsalı, *saxlanılması,* ötürülməsi və paylanması üçün lazım olan avadanlıq və onlara aid tikililər;[4]

**elektrik şəbəkəsi** - birgə fəaliyyət göstərən müxtəlif gərginlikli transformator yarımstansiyalarından, paylayıcı qurğulardan, kabel və hava elektrik veriliş xətlərindən ibarət olan elektrik qurğuları;

**paylayıcı qurğu** - elektrik şəbəkəsinin bir hissəsi olaraq, istehlakçılara elektrik enerjisini çatdıran elektrik qurğuları;

**balans mənsubiyyəti sərhədi** - dövlət elektroenergetika müəssisəsi ilə enerjitəchizatı müəssisəsi arasında, dövlət elektroenergetika müəssisəsi ilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsi ilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsi ilə abonent arasında, abonent ilə subabonent arasında elektrik şəbəkəsinin balans mənsubiyyəti ilə müəyyənləşdirilən ayırma nöqtəsi*;*

***zəmanətli tarif*** *- elektrik şəbəkəsinə verilən elektrik enerjisinin hər kilovat-saatı üçün dəstək mexanizmi çərçivəsində bərpa olunan enerji mənbələrinin əraziləri üzrə hərrac və ya birbaşa cəlbetmə yolu ilə müəyyənləşdirilmiş istehsalçılara münasibətdə müəyyən edilən tarif;*[5]

***tikinti obyekti*** *– tikinti fəaliyyəti prosesində yaradılan və ya yaradılmış bina və ya qurğular;*[6]

***sayğacın qoşulma sxemi*** *- sayğacın normal işini təmin edən, bir-biri ilə əlaqələndirilmiş elektrik komponentlərinin (ölçü transformatorları və naqillər) qoşulma ardıcıllığı.*

1.2. Bu Qaydalar “Enerji resurslarından istifadə haqqında”, “Elektroenergetika haqqında”, “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarına və digər qanunvericilik aktlarına əsasən tərtib edilmiş və dövlət elektroenergetika müəssisəsi, enerjitəchizatı müəssisələri, müstəqil enerji istehsalçıları, elektrik enerjisi istehlakçıları arasındakı qarşılıqlı münasibətləri müəyyənləşdirir. Bu Qaydaların icrası tabeliyindən, mülkiyyət formasından, maliyyə mənbəyindən asılı olmayaraq dövlət elektroenergetika müəssisəsi, enerjitəchizatı müəssisələri, müstəqil enerji istehsalçıları və elektrik enerjisi istehlakçıları üçün məcburidir.

1.3. Enerjitəchizatı müəssisəsi elektrik enerjisinin alqı-satqı müqaviləsi əsasında dövlət elektroenergetika müəssisəsindən, yaxud müstəqil enerji istehsalçısından elektrik enerjisini satın alır və onu istehlakçılara satır.

Enerjitəchizatı müəssisəsi ilə abonent arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanmalıdır.

Bu müqaviləyə elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti aktı əlavə edilir.

Elektrik enerjisinin alqı-satqı müqavilələri bu Qaydalara əlavə edilmiş birtipli müqavilələrə (1-5 nömrəli əlavələr) uyğun bağlanmalıdır.

~~*Alternativ və bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarını istismar edən müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi, yaxud enerji təchizatı müəssisəsi arasında elektrik enerjisinin alqı-satqısına dair müqavilələrdə Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırılmaqla, bu Qaydaların müddəalarından fərqli müddəalar nəzərdə tutula və həmin alqı-satqı müqavilələri bu Qaydalara əlavə edilmiş birtipli müqavilələrdən fərqli formada bağlanıla bilər.*~~[7]

1.4. Abonentin (əsas istehlakçının) şəbəkəsinə qoşulmuş istehlakçılar (subabonentlər), elektrik enerjisinin alqı-satqı müqaviləsini onunla bağlayırlar. Abonent ilə enerjitəchizatı müəssisəsi arasında bağlanılmış elektrik enerjisinin alqı-satqı müqaviləsində və bu müqaviləyə əlavədə onun şəbəkəsinə qoşulmuş subabonentlər haqqında məlumatlar, o cümlədən idarənin adı, elektrik enerjisi istehlakı, hesablaşma elektrik sayğacları, tarif və digər məlumatlar göstərilir (9 nömrəli əlavə).

Enerjitəchizatı müəssisəsi bilavasitə subabonentlə elektrik enerjisinin alqı-satqı müqaviləsini bağlaya bilər. Enerjitəchizatı müəssisəsi bilavasitə subabonentlə elektrik enerjisinin alqı-satqı müqaviləsini bağladıqda, subabonentin elektrik enerjisi sərfi və ona aid tranzit elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) əsas istehlakçının sərfindən çıxılmalıdır.

1.5. Girişləri enerjitəchizatı müəssisəsinin balansında olan istehlakçıya məxsus paylayıcı qurğulardan iki və daha artıq başqa istehlakçıya elektrik enerjisi verildikdə, enerjitəchizatı müəssisəsinə onlarla bilavasitə elektrik enerjisinin alqı-satqı müqaviləsini bağlamaq və elektrik enerjisinə görə hesablaşmalar aparmaq hüququ verilir. İstehlakçının paylayıcı qurğusunun enerjitəchizatı müəssisəsinin balansına verilməsi mövcud qanunvericiliyə uyğun həyata keçirilir.

*1.6. Dövlət elektroenergetika müəssisəsinin, enerji təchizatı müəssisəsinin, müstəqil enerji istehsalçısının yeni və ya yenidən quraşdırılmış elektrik qurğularının şəbəkəyə qoşulması, istifadə olunmasına icazə verilmiş gücün artırılması və enerji təchizatı sxeminin dəyişdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"na uyğun olaraq verilən texniki şərtlərə və Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – Enerji Məsələlərini Tənzimləmə Agentliyi) istismara buraxılış aktına əsasən həyata keçirilir.*[8]

*1.7. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi qaydası, habelə bərpa olunan enerji mənbələrinin ərazisində hərrac və ya birbaşa cəlbetmə yolu ilə seçilmiş elektrik enerjisi istehsalçısı ilə bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.*[9]

## 2. ELEKTRİK QURĞULARININ ŞƏBƏKƏYƏ QOŞULMASI ÜÇÜN TEXNİKİ ŞƏRTLƏR

*2.1. Yeni, yaxud yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan, həmçinin enerji təchizatı sxemini dəyişən istehlakçıların (sifarişçilərin), o cümlədən məişət abonentlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və elektrik şəbəkəsinə qoşulması qaydaları və onlara dair tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları"na, "Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarların tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 iyul tarixli 326 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası"na əsasən müəyyən edilir. Müstəqil enerji istehsalçısının bərpa olunan enerji mənbələri üzrə elektrik qurğularının şəbəkəyə qoşulmasına dair texniki şərtlər müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi arasında bağlanılmış şəbəkəyə qoşulma müqaviləsi ilə müəyyən olunur və bu zaman şəbəkəyə qoşulma həmin müqavilənin tələblərinə uyğun həyata keçirilir.*[10]

~~2.2. Obyektin elektrik şəbəkəsinə qoşulması haqqında texniki şərtlərdə aşağıdakılar göstərilir:~~[11]

~~2.2.1. qoşulma nöqtələri (yarımstansiya, elektrik stansiyası və ya elektrik verilişi xətti), obyekti qidalandıran hava və ya kabel xətlərinin hansı gərginliyə hesablanması, qoşulma nöqtələrində gərginliyin gözlənilən səviyyəsi, ayrı-ayrı hallarda istilik enerjisinin istehlakına tələbat olduqda, qidalandırıcı istilik şəbəkələri sxeminin variantlarının işlənilməsi;~~

~~2.2.2. yeni obyektin yaranması ilə əlaqədar (məişət abonenti istisna ol-maqla) qoşulması nəzərdə tutulan gücə müvafiq olaraq mövcud şəbəkəni gücləndirmək haqqında əsaslandırılmış tələblər (naqilin en kəsiyinin artırılması, transformatorların gücünün artırılması və ya dəyişdirilməsi, ehtiyat yuvaların quraşdırılması və s.);~~

~~2.2.3. qısa qapanma cərəyanlarının hesabat hədləri (ustavka), rele mühafizəsinə, avtomatikaya, rabitəyə, izolyasiyaya və ifrat gərginlikdən mühafizəyə verilən tələblər;~~

~~2.2.4. elektrik enerjisinin keyfiyyət göstəricilərinə, reaktiv gücün kompensasiyasına və istehlakına verilən tələblər~~;

~~2.2.5. elektrik enerjisinin uçotuna olan tələblər;~~

~~2.2.6. Azərbaycan Respublikasında qüvvədə olan standartlara (bundan sonra - standartlar) uyğun elektrik enerjisinin keyfiyyətinə nəzarət edən cihazların, elektrik şəbəkələrində və elektrikqəbuledicilərində enerjinin keyfiyyətini təmin edən stabilləşdirmə qurğularının quraşdırılmasına xüsusi tələblər;~~

~~2.2.7. qidalandırma xətlərinə qoşulmuş elektrik qurğularına olan xüsusi tələblər (ehtiyat qidalandırmanın və girişdə avtomatik mühafizənin vacibliyi, qidalandırıcı xətlərin paralel işləməsinin mümkünlüyü, enerjisistemdə güc çatışmazlığı yarandıqda, elektrik qəbuledicilərinin məsul yüklərinin elektrik təchizatını təmin etmək məqsədilə ehtiyatı olan qidalandırma xətlərinə ayırma);~~

~~2.2.8. istehlakçılarının sutkalıq yük qrafikinin tənzimlənməsinə olan tələblər;~~

~~2.2.9. müəssisənin, binanın, qurğunun layihəsində (işçi layihəsində) elektrik qurğularının istismarının təşkilinə dair layihə qərarlarının hazırlanması üzrə tələblər;~~

~~2.2.10. elektrik enerjisinin istehlakı və yüklər haqqında əsas perspektiv məlumatları göstərməklə, istehlakçının şəbəkəsinə qoşulmuş subabonentlərin siyahısı.~~

~~2.3. Texniki şərtlərin yerinə yetirilməsi sifarişçi və layihəçilər üçün məcburidir. Texniki şərtlərin qüvvədəqalma müddəti sənaye tikintisi üçün sahə ayrıldıqda və ya yaşayış obyektləri tikintisini, habelə əlavə sahə tutmadan müəssisə və qurğuların yenidən qurulmasını layihələndirmək haqqında tapşırıq hazırlandıqda müəyyən edilir və bu müddət texniki şərtlərdə göstərilir. Göstərilən müddət mövcud normalara əsasən müəssisisə, bina, qurğu, onun növbələri və ya ayrı-ayrı istehsalat tikintilərinin layihələndirilməsi və tikilib başa çatdırılması üçün müəyyən olunmuş müddətdən az olmamalıdır. Bir qayda olaraq, texniki şərtlərin qüvvədəqalma müddəti iki il müəyyən edilir. Texniki şərtlərin qüvvədəqalma müddəti keçdikdə, sifarişçi və ya layihəçi həmin şərtləri verən təşkilatla onun müddətinin uzadılması məsələsini həll etməlidir.~~[12]

~~2.4. Müəssisənin, binanın, qurğuların, onların növbələrinin və ya ayrıca istehsalatın layihəsinin texniki şərtlərə, "Elektrik qurğularının quraşdırılması qaydaları"na və digər normativ sənədlərin tələblərinə uyğunluğu texniki şərtləri vermiş təşkilat və *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* tərəfindən baxılır və razılaşdırılır. Layihə razılaşdırıldıqdan sonra texniki şərtlərin müddəti keçdikdə, onun təkrarən razılaşdırılması tələb olunmur. Ayn-ayrı hallarda müəssisəni, qurğunu, onun növbəsini və ya hər hansı bir istehsalatı layihələndirdikdə, razılaşdırılmış layihə qərarından və texniki şərtlərdən kənara çıxmaq lazım gələrsə, onda bu kənaraçıxma həmin təşkilatlarla yenidən razılaşdırılmalıdır. Baxılan tikinti layihəsində texniki şərtlərdən və ya mövcud normativ sənədlərdən kənaraçıxma halları aşkar olunarsa, texniki şərtləri vermiş təşkilat və *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* tərəfindən sifarişçiyə tikilən obyektin elektrik şəbəkəsinə qoşulmasından imtina edilməsi haqqında əsaslandırılmış məktub göndərilir.~~[13]

~~2.5. Sifarişçi layihəçinin iştirakı ilə obyektdə tikinti işlərinə başlamazdan əvvəl, texniki şərtləri vermiş təşkilata və*Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* müəssisənin, binanın, qurğunun, onun növbələrinin və ya ayrıca istehsalatının layihəsinin müvafiq fəsillərini və işçi cizgilərini təqdim edir. Texniki şərtləri vermiş təşkilat və *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* on gün müddətində qəbul olunmuş tikinti layihəsinin texniki şərtlərə, "Elektrik qurğularının quraşdırılması qaydaları"na və digər normativ sənədlərin tələblərinə uyğunluğunu araşdırır və layihəni razılaşdırır.~~[14]

Ayrı-ayrı hallarda əlavə araşdırma tələb olunarsa, göstərilən tikinti layihəsinin baxılma müddəti bir aya qədər artırıla bilər.

*12.5-1. Zəmanətli tariflər "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsinə uyğun olaraq müəyyən edilir.*[15]

### 3. ELEKTRİK QURĞULARININ İSTİSMARA BURAXILMASI

3.1. Dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisələrinin, müstəqil enerji istehsalçılarının, istehlakçılarının, o cümlədən subabonentlərin bütün yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən elektrik qurğuları "Elektrik qurğularının quraşdırılması qaydaları"na, tikinti normalarına və başqa texniki normativ hüquqi aktlara uyğun yerinə yetirilərək, ~~*müəyyən edilmiş qayda üzrə* razılaşdırılmış~~ tikinti layihəsi və texniki təhvil-təslim sənədləri ilə təmin edilməlidir. [16]

*3.2. Dövlət elektroenergetika müəssisəsinin, enerji təchizatı müəssisələrinin, müstəqil enerji istehsalçılarının, istehlakçıların, o cümlədən subabonentlərin bütün yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerji təchizatı sxemini dəyişən elektrik qurğuları istismara buraxılmazdan əvvəl, onlar təhvil-təslim sınaqlarından keçirilərək, quraşdırma təşkilatından aktla sifarişçi tərəfindən qəbul edilməlidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularına münasibətdə sifarişçi öz elektrik qurğularına baxış keçirmək və istismara buraxılış aktı almaq üçün həmin qurğuları, eləcə də bu Qaydaların 3.2-1-ci bəndində qeyd edilən sənədləri Enerji Məsələlərini Tənzimləmə Agentliyinə təqdim etməlidir. Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən sifarişçinin, tikinti-quraşdırma işlərini yerinə yetirən müəssisənin və ETM-in nümayəndələrinin iştirakı ilə görülən işlərə baxış keçirilir və texniki şərtlərin, enerji təchizatı layihəsinin, elektrik xətlərinin çəkilməsi və elektrik qurğularının quraşdırılması qaydalarının tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən "Energetika haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq elektrik qurğusuna istismara buraxılış aktı verilir.*[17]

*3.2-1. Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən 150 kVt-dan yuxarı elektrik qurğularının istismarına buraxılış aktı vermək üçün texniki baxış sifarişçilərin təqdim etdiyi ərizə və aşağıdakı sənədlər əsasında keçirilir:*[18]

*3.2-1.1. enerji təchizatı müəssisəsinin və ya dövlət elektroenergetika müəssisəsinin verdiyi texniki şərtlər;*

*3.2-1.2. Enerji Məsələlərini Tənzimləmə Agentliyi və enerji təchizatı müəssisəsi ilə razılaşdırılmış enerji təchizatı layihəsi;*

*3.2-1.3. tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;*

*3.2-1.4. elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması barədə əmrin surəti;*

*3.2-1.5. kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu;*

*3.2-1.6. transformatorun və avadanlıqların sınaq-sazlama protokolu;*

*3.2-1.7. elektrik verilişi xəttinin sınaq protokolu və qapalı işlər aktı;*

*3.2-1.8. elektrik sayğacının quraşdırılması aktı;*

*3.2-1.9. Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1-18.2.4-cü maddələrində qeyd edilən sənədlər.*[19]

*3.2-2. 150 kVt-dan yuxarı elektrik qurğularının istismara buraxılış aktının verilməsinə g örə 'Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə m üəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.*[20]

3.3. Elektrik qurğularının istismara buraxılış qaydaları yeni tikilmiş və ya əsaslı təmir edilmiş yaşayış binalarının~~xüsusi~~ yaşayış evlərinin elektrik xətlərinə və elektrik avadanlıqlarına da aid edilir. [21]

3.4. Elektrik qurğularının istismara buraxılışı,~~xüsusi~~ yaşayış evlərinin elektrik xətləri və elektrik avadanlıqları istisna olmaqla, yalnız sifarişçidə müvafiq elektrotexniki heyətin və elektrik təsərrüfatına cavabdeh şəxsin olduğu halda mümkündür. *Yaşayış* evlərinin elektrik xətlərinin və elektrik avadanlıqlarının texniki vəziyyətinə və düzgün istismarına görə cavabdehlik onun

mülkiyyətçisinin üzərinə düşür. [22]

3.5. Yeni elektrik qurğularına gərginliyin verilməsi yalnız uçot cihazları quraşdırılıb yoxlanıldıqdan*Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularına münasibətdə isə, Enerji Məsələlərini Tənzimləmə Agentliyi* tərəfindən istismara buraxılış aktı verildikdən, elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlandıqdan sonra yerinə yetirilir. [23]

3.6. Elektrik qurğularının quraşdırılmasında çatışmazlıqlar, qoşulma üçün verilmiş texniki şərtlərdən, "Elektrik qurğularının quraşdırılması qaydaları"ndan və başqa normativ sənədlərdən kənara çıxmalar aşkar edildikdə, yaxud həmin qurğulara xidmət etmək üçün hazırlanmış elektrotexniki heyət olmadıqda, göstərilən çatışmazlıqlar aradan qaldırılmayana kimi onların istismara buraxılmasına icazə verilmir.

3.7. İşi mövsümi xarakter daşıyan istehlakçıların (düşərgələr, istirahət evləri, istirahət zonaları və s.) elektrik qurğuları hər il işə qoşulmazdan əvvəl *enerji təchizatı müəssisəsi* tərəfindən onlara baxış keçirilməlidir və bu zaman istehlakçı elektrik qurğularının sınaq və təftiş protokollarını *enerji təchizatı müəssisəsinin əməkdaşına* təqdim etməlidir. İşi mövsümi xarakter daşıyan elektrik qurğularına *enerji təchizatı müəssisəsi* tərəfindən texniki baxış keçirildikdən və şəbəkəyə qoşulması barədə akt tərtib edildikdən sonra həmin qurğuya gərginlik verilir. [24]

## 4. ELEKTRİK ENERJİSİ İSTEHLAKININ REJİMLƏRİ VƏ ƏSAS ŞƏRTLƏRİ

4.1. Enerjitəchizatı müəssisəsi tərəfindən bütün istehlakçılara, o cümlədən məişət abonentlərinə elektrik enerjisinin verilməsi bu Qaydalara uyğun tərtib edilmiş elektrik enerjisinin alqı-satqı müqaviləsinə əsasən həyata keçirilir.

Güc, elektrik enerjisi çatışmazlığı və qəza vəziyyətilə əlaqədar enerjitəchizatı müəssisəsi istehlakçıya məhdudiyyət və ya birbaşa açılma qrafiklərini tətbiq etmək hüququna malikdir.

Güc, elektrik enerjisi çatışmazlığı və qəza vəziyyətilə əlaqədar məhdudiyyət və birbaşa açılma qrafiklərinin hazırlanması və tətbiqi müvafiq təlimata əsasən həyata keçİrilir.

4.2. İstehlakçılar, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş elektrik enerjisi istehlakının göstəricilərinə və məhdudiyyət rejimlərinə əməl etməli, elektrik enerjisindən səmərəsiz istifadə olunmasına, israfçılığa və təsərrüfatsızlığa yol verməməlidirlər.

4.3. İstehsal, dəmir yolu, elektrikləşdirilmiş şəhər nəqliyyatı, kommunal təsərrüfatı (su təchizatı,kanalizasiya və s.) və meliorasiya obyektlərinə aid istehlakçılar aşağıdakıları yerinə yetirməyə borcludurlar:

4.3.1. vahid məhsulun istehsalına və ya göstərilən xidmətə (ümumi istehsalat və texnoloji, fərdi və qrup halında, illik, rüblük və aylıq) elektrik enerjisi sərfinin texniki-iqtisadi cəhətdən əsaslandırılmış mütərəqqi normalarının işlənməsinə, istehsalat texnologiyası və onun təşkili təkmilləşdirildikdə, dəyişdirildikdə və ya yeni texnika tətbiq edildikdə onlara yenidən baxmağa;

4.3.2. bütövlükdə müəssisə, həmçinin böyük enerji tutumlu aqreqatlar, sexlər, istehlakçılar qrupları üzrə elektrik balansını tərtib etməyə və onların əsasında istehsalat proseslərində elektrik enerjisindən səmərəli istifadə olunmasının təhlilini aparmağa, elektrik enerjisinin səmərəsiz sərfinin qarşısının alınması üçün tədbirlər hazırlamağa və həyata keçirməyə;

4.3.3. enerjitəchizatı müəssisəsinin elektrik şəbəkələrinin enerji buraxma imkanlarının artırılmasına dair tələbatın müəyyən olunması məqsədilə məhsulun istehsal həcminin planına, işlərin növbələrinə və elektrik enerjisi sərfinin normalarına əsasən illik və perspektiv elektrik balansını tərtib etməyə;

4.3.4. təsdiq olunmuş elektrik enerjisi sərfi normalarına əməl etməyə və onların azaldılması üzrə tapşırıqları yerinə yetirməyə;

4.3.5. elektrik enerjisinin qənaəti üzrə təşkilati-texniki tədbirlər planını (illik, perspektiv müddətə) hazırlamağa və icra etməyə;

4.3.6. enerjitəchizatı müəssisəsi ilə birlikdə enerjisistemin maksimum yük saatlarında gücün aşağı salınması üzrə tənzimləmə tədbirini hazırlamağa və onları yerinə yetirməyə;

4.3.7. enerjisistemdə güc, elektrik enerjisi çatışmadıqda və ya qəza vəziyyətində istehlakçıların məhdudiyyət və birbaşa açılma qrafiklərinə uyğun olaraq, enerjitəchizatı müəssisəsinin yükün azaldılması, elektrik enerjisi sərfinin məhdudlaşdırılması haqqında tələblərini yerinə yetirməyə;

4.3.8. enerjisistemin maksimum yük saatlarında enerjitəchizatı müəssisəsinin aktiv güc göstəricilərinə qoyduğu məhdudlaşdırmaya, enerjitəchizatı müəssisəsinin şəbəkələrindən sərf edilən reaktiv gücün optimal göstərişinə və kompensasiya qurğularının iş rejimlərinə riayət etməyə;

4.3.9. enerjitəchizatı müəssisəsi ilə balans mənsubiyyəti sərhədində istehlakçının elektrik qəbuledicilərinin iş xüsusiyyətlərinə uyğun, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyənləşdirilmiş elektrik enerjisinin keyfiyyət göstəricilərinə riayət etməyə.

4.4. Güc, elektrik enerjisi çatışmazlığı və qəza vəziyyətilə əlaqədar məhdudiyyət və ya birbaşa açılma qrafiklərini pozan istehlakçılar enerjitəchizatı müəssisəsinin təqdimatına əsasən həmin qrafiklərin birinci növbəsinə keçirilə bilər.

Pozuntulara mütəmadi yol verildikdə, istehlakçı şəbəkədən açılır və təqsirkar şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi barədə enerjitəchizatı müəssisəsi tərəfindən məsələ qaldırılır.

## 5. ELEKTRİK ŞƏBƏKƏLƏRİNİN BALANS MƏNSUBİYYƏTİ SƏRHƏDLƏRİ

5.1. Dövlət elektroenergetika müəssisəsilə enerjitəchizatı müəssisəsi arasında, dövlət elektroenergetika müəssisəsilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsilə abonent arasında, abonent ilə subabonent arasında elektrik qurğularının texniki vəziyyətinə və onlara xidmətə görə cavabdehlik sərhədi bu qurğuların balans mənsubiyyətilə müəyyənləşdirilir və elektrik enerjisinin alqı-satqı müqaviləsinə əlavə edilən elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti aktında qeyd olunur (8 nömrəli əlavə).

5.2. Gərginliyi 1000 V və daha yüksək olan elektrik qurğularının texniki vəziyyətinə və onlara xidmətə görə məsuliyyət sərhədi aşağıdakı kimi müəyyən edilir :

5.2.1. qapalı paylayıcı qurğulardakı keçid izolyatorunun xarici tərəfindəki birləşdiricisində və açıq paylayıcı qurğuların portalındakı dartıcı izolyatorlar zəncirinin gərilmə sıxacından çıxan naqildə;

5.2.2. qidalandırıcı, yaxud çıxış elektrik veriliş xətlərinin kabel və ya hava girimlərinin uclarında.

5.2.1-ci və 5.2.2-ci bəndlərində göstərilən birləşmələrin texniki vəziyyətinə görə məsuliyyət və onlara nəzarət yarımstansiyanı istismar edən təşkilata həvalə olunur. Müxtəlif təşkilatlara məxsus, ayırmalara birbaşa, yaxud ayırıcı vasitəsilə qoşulan 1000 V və daha yüksək gərginlikli elektrik veriliş xətlərinin texniki vəziyyətinə və onlara xidmətə görə məsuliyyət sərhədi əsas xəttin ayırma

aparılan dayağında müəyyənləşdirilir. Ayırmanı birləşdirən sıxacların texniki vəziyyətinə görə məsuliyyət əsas xəttin mənsub olduğu təşkilatın üzərinə düşür.

Elektrik və rabitə qurğularının istismar xüsusiyyətlərindən irəli gələn, digər əsaslandırılmış balans mənsubiyyəti sərhədi də müəyyən edilə bilər.

5.3. Enerjitəchizatı müəssisəsi ilə abonent arasında gərginliyi 1000 V-a qədər olan elektrik qurğularının texniki vəziyyətinə və onlara xidmətə görə məsuliyyət sərhədi aşağıdakı kimi müəyyən edilir:

5.3.1. hava budaqlanmasında-binada, ~~xüsusi~~ yaşayış evində və ya dayaqda bərkidilmiş birinci izolyatorda;[25]

5.3.2. kabellə daxil olduqda- binanın, ~~xüsusi~~ yaşayış evinin və ya mən-zilin girişindəki qidalandırıcı kabelin uclarında.

Yaşayış binalarının, yaxud ~~xüsusi~~ yaşayış evlərinin mülkiyyətçilərinə, idarələr və başqa qeyri-istehsalat istehlakçılarına məxsus olan binalarda, həmçinin məişət abonentlərinin mənzillərində balans mənsubiyyəti sərhədindəki birləşmələrin texniki vəziyyətinə görə məsuliyyət enerjitəchizatı müəssisəsinin üzərinə düşür.

## 6. ELEKTRİK QURĞULARINA DÖVLƏT ENERJİ NƏZARƏTİ

6.1. Azərbaycan Respublikasının ərazisində tabeliyindən, mülkiyyət formasından və maliyyə mənbəyindən asılı olmayaraq dövlət elektroenergetika müəssisəsi, enerjitəchizatı müəssisələri, müstəqil enerji istehsalçıları, istehlakçılar, o cümlədən hüquqi və fiziki şəxslər tərəfindən elektrik enerjisinin *istehsalı, saxlanılması, ötürülməsi, paylanması, satışı, istehlakı və enerji effektivliyi sahəsində*, elektrik qurğularının layihələndirilməsində, tikintisində, yenidən qurulmasında, təmirində, həmçinin onların təhlükəsiz, qəzasız və etibarlı istismarında Azərbaycan Respublikasının qanunlarına, müvafiq qaydalara, təlimatlara və digər texniki normativ hüquqi aktlara əməl olunmasına dövlət nəzarətini Azərbaycan Respublikası Energetika Nazirliyinin *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* həyata keçirir.[26]

6.2. ~~“Dövlət Enerjinəzarət” İdarəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 iyul tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət enerjinəzarəti (elektrik və istilik üzrə) haqqında Əsasnamə”yə uyğun olaraq fəaliyyət göstərir.~~[27]

~~*Enerji Məsələlərini Tənzimləmə Agentliyi* ilə razılaşdırılmış müvafiq qaydalara əsasən istismar olunan, istehlakçılara məxsus elektrik qurğularına enerjinəzarəti bu istehlakçıların özü tərəfindən həyata keçirilir.~~ [28]

6.3. Dövlət enerji nəzarətinin həyata keçirilməsi dövlət elektroenergetika müəssisəsini, enerjitəchizatı müəssisələrini, müstəqil enerji istehsalçılarını, istehlakçıları onların və ya tabeliklərindəki struktur bölmələrinin sərəncamında olan elektrik qurğularının texniki vəziyyətinə və istismarına görə nəzarətdən azad etmir və onlar *“Elektrik qurğularının quraşdırılması Qaydası”na, “Elektrik və istilik qurğularının texniki istismar Qaydası”na və “Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası”na,* bu Qaydalara və digər normativ sənədlərə əməl olunmasına görə cavabdehlik daşıyırlar.[29]

6.4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin “Sənaye, elektrik və istilik enerjisindən istifadə qaydaları əleyhinə olan inzibati xətalar” fəslində *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətinə aid maddələrə uyğun olaraq, pozuntuya yol vermiş fiziki şəxslərə, vəzifəli şəxslərə və hüquqi şəxslərə qarşı *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* tərəfindən inzibati tənbeh növləri tətbiq edilir.

## 7. ELEKTRİK ENERJİSİNİN UÇOT CİHAZLARININ QURAŞDIRILMASI VƏ İSTİSMARI

7.1. Dövlət elektroenergetika müəssisəsi ilə enerjitəchizatı müəssisəsi arasında, dövlət elektroenergetika müəssisəsilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsilə abonent arasında və abonent ilə subabonent arasında elektrik enerjisi sərfinə görə hesablaşmaq üçün elektrik qurğuları lazımi uçot cihazları ilə təmin olunmalıdır.

7.2. Dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisəsinin, müstəqil enerji istehsalçısının, abonentin və subabonentin şəbəkələrinə elektrik enerjisinə görə hesablaşma uçot cihazları olmayan elektrik qurğularının qoşulmasına yol verilmir.

7.3. Hesablaşma uçot cihazları, o cümlədən aktiv və reaktiv enerji, aktiv və reaktiv güc elektrik sayğacları, həmçinin cəmləşdirici qurğular və avtomatlaşdırılmış uçot sistemləri “Elektrik qurğularının quraşdırılması qaydaları”na uyğun *quraşdırılmalıdır.* [30]

7.4. Dövlət elektroenergetika müəssisəsilə enerjitəchizatı müəssisəsi arasında elektrik enerjisinə görə hesablaşma aparılması üçün enerji ötürən hər bir elektrik qurğusu hesablaşma elektrik sayğacları ilə, həmçinin elektrik enerjisinin uçotunun digər vasitələri - cəmləşdirici qurğularla, avtomatlaşdırılmış uçot və nəzarət sistemlərilə və s. dövlət elektroenergetika müəssisəsi tərəfindən təchiz olunur, onlar balans mənsubiyyətinin sərhəd nöqtələrində quraşdırılır, standartların müəyyən etdiyi müddətlərdə plan üzrə dəyişdirilir və istismar edilir.

Enerjitəchizatı müəssisəsinin təqsirindən hesablaşma elektrik sayğacları zədələndikdə və ya qoşulma sxemi pozulduqda təmir, əvəzetmə və dövlət yoxlanışı onun vəsaiti hesabına yerinə yetirilir.

Hesablaşma elektrik sayğacının zədələnməsinin laboratoriya şəraitində araşdırılması tələb olunduqda, dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisəsinin və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* iştirakı ilə araşdırma aparılır və aktla sənədləşdirilir. Enerjitəchizatı müəssisəsinin təqsirindən zədələnmiş və ya itmiş hesablaşma elektrik sayğacının əvəzinə dövlət elektroenergetika müəssisəsi ondan istismara yararlı yeni elektrik sayğacı tələb etmək hüququna malikdir.

7.5. Müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi arasında elektrik enerjisinə görə hesablaşma aparılması üçün enerji ötürən hər bir elektrik qurğusu hesablaşma elektrik sayğacları ilə, həmçinin elektrik enerjisinin uçotunun digər vasitələri - cəmləşdirici qurğularla, avtomatlaşdırılmış uçot və nəzarət sistemlərilə və s. müstəqil enerji istehsalçısı tərəfindən təchiz olunur, onlar balans mənsubiyyətinin sərhəd nöqtələrində quraşdırılır, standartların müəyyən etdiyi müddətlərdə plan üzrə dəyişdirilir və istismar edilir.

Dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin təqsirindən hesablaşma elektrik sayğacları

zədələndikdə və ya qoşulma sxemi pozulduqda təmir, əvəzetmə və dövlət yoxlanışı müvafiq olaraq pozuntuya yol vermiş tərəfin vəsaiti hesabına yerinə yetirilir. Hesablaşma elektrik sayğacının zədələnməsinin laboratoriya şəraitində araşdırılması tələb olunduqda, müstəqil enerji istehsalçısı tərəfindən müvafiq olaraq dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin iştirakı ilə araşdırma aparılır və ikitərəfli aktla sənədləşdirilir. Dövlət elektroenergetika müəssisəsinin və ya enerjitəchizatı müəssisəsinin təqsirindən zədələnmiş və ya itmiş hesablaşma elektrik sayğacının əvəzinə müstəqil enerji istehsalçısı pozuntuya yol vermiş tərəfdən istismara yararlı yeni elektrik sayğacı tələb etmək hüququna malikdir.

7.6. Enerjitəchizatı müəssisəsi ilə istehlakçı, o cümlədən məişət abonenti arasında elektrik enerjisinə görə hesablaşma aparılması üçün enerji ötürən hər bir elektrik qurğusu hesablaşma elektrik sayğacları ilə, həmçinin elektrik enerjisinin uçotunun digər vasitələri - cəmləşdirici qurğularla, avtomatlaşdırılmış uçot və nəzarət sistemlərilə və s. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təchiz olunur və balans mənsubiyyətinin sərhəd nöqtələrində quraşdırılır, onlar enerjitəchizatı müəssisəsi tərəfindən standartların müəyyən etdiyi müddətlərdə plan üzrə dəyişdirilir və istismar edilir.

İstehlakçının, o cümlədən məişət abonentinin təqsirindən hesablaşma elektrik sayğacları zədələndikdə və ya qoşulma sxemi pozulduqda təmir, əvəzetmə və dövlət yoxlanışı onun hesabına yerinə yetirilir. Hesablaşma elektrik sayğacının zədələnməsinin laboratoriya şəraitində araşdınlması ~~tələb olunduqda,~~ enerjitəchizatı müəssisəsi tərəfindən istehlakçının, o cümlədən məişət abonentinin iştirakı ilə araşdırma aparılır və ikitərəfli aktla sənədləşdirilir. *İstehlakçı, o cümlədən məişət abonenti araşdırmada iştirak etməkdən və ya aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və yol verilmiş pozuntu texniki vasitələrlə (foto və ya videoçəkiliş aparılmaqla) qeydə alınır.* İstehlakçınmın, o cümlədən məişət abonentinin təqsirindən zədələnmiş və ya itmiş hesablaşma elektrik sayğacının əvəzinə enerjitəchizatı müəssisəsi ondan istismara yararlı yeni elektrik sayğacı və ya onun dəyərini tələb etmək hüququna malikdir. [31]

7.7. Bu Qaydaların 7.4-cü, 7.5-ci və 7.6-cı (məişət abonenti istisna ol-maqla) bəndlərində göstərilən hesablaşma elektrik sayğaclarının, həmçinin hesablaşma elektrik sayğaclarını (ölçü transformatorları vasitəsilə qoşulduqda) qidalandıran ikinci dövrələrin və ölçü transformatorlarının qorunmasına və işçi vəziyyətdə saxlanılmasına görə cavabdehlik onların quraşdırıldığı elektrik qurğusunun (elektrik naqilinin) mülkiyyətçisinin üzərinə düşür.

7.8. Bir elektrik enerjisi təchizatı mənbəyindən müxtəlif tarif qruplarına aid bir neçə istehlakçı qidalandırıldıqda, hər bir tarif qrupu üçün hesablaşma elektrik uçot cihazları quraşdırılmalıdır. Bundan başqa, elektrik enerjisinə nəzarət uçotu üçün müəyyən edilmiş elektrik enerjisi sərfi normalarının yerinə yetirilməsinə nəzarət üçün ayrı-ayrı sexlərdə, elektrik tutumlu aqreqatlarda, texnoloji xətlərdə, binalarda, ayrı-ayrı kənd təsərrüfatı, kommunal-məişət və başqa obyektlərdə texniki-nəzarət uçot cihazları quraşdırılır.

7.9. Məişət abonentinin elektrik enerjisi sərfinə görə hesablaşması hər bir yaşayış sahəsi, o cümlədən üçün yaşayış binalarındakı hər bir mənzil üzrə hesablaşma elektrik sayğacı quraşdırılır. Həmçinin yaşayış binalarında ümumi məqsədlərə - pilləkənlərin işıqlandırılmasına, liftlərin, nasosların işləməsinə və s. sərf edilən elektrik enerjisinə görə hesablaşmaq üçün hesablaşma elektrik sayğacı quraşdırılır. Kommunal mənzildə elektrik enerjisi sərfinə görə hesablaşmalar aparmaq məqsədilə hər bir məişət abonenti üçün hesablaşma elektrik sayğacı quraşdırılır, həmçinin mənzilin ümumi istifadə yerlərində (dəhlizin, mətbəxin, hamamın və s.) elektrik enerjisi sərfini müəyyənləşdirmək üçün ayrıca hesablaşma elektrik sayğacı quraşdırılır. Fiziki şəxs olan istehlakçıların sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi enerji təchizatı müəssisəsinin hesabına həyata keçirilir. [32]

*7.10. Yaşayış evlərində və yaşayış binalarında məişət abonentlərinin mənzillərindəki istismarda olan hesablaşma elektrik sayğacları enerji təchizatı müəssisəsinin vəsaiti hesabına çıxarılaraq, yaşayış evlərinin hasarının xarici tərəfində (hasar olmadıqda evin fasadında), yaşayış binalarının mənzillərinin girişində, yaxud həmin mənzillərin pilləkən meydançalarında quraşdırılmalıdır. Yeni yaşayış evlərində və yaşayış binalarında məişət abonentlərinin elektrik sayğacları yaşayış evlərinin hasarının xarici tərəfində (hasar olmadıqda evin fasadında), yaşayış binalarının mənzillərinin girişində, yaxud həmin mənzillərin pilləkən meydançalarında kənardan müdaxilə imkanı olmayan elektrik lövhəsində quraşdırılmalıdır.* [33]

7.11. *Yaşayış evlərinin hasarının xarici tərəfində (hasar olmadıqda evin fasadında), yaşayış* binalarının girişində, yaxud pilləkən meydançalarında quraşdırılmış mənzillər üzrə hesablaşma elektrik sayğaclarının, o cümlədən üzərindəki plombların qorunmasına və işçi vəziyyətdə saxlanılmasına görə enerjitəchizatı müəssisəsi cavabdehlik daşıyır. Enerjitəchizatı müəssisəsi *yaşayış evlərinin hasarının xarici tərəfində (hasar olmadıqda evin fasadında),* yaşayış binalarının girişində, yaxud pilləkən meydançalarında quraşdırılmış mənzillər üzrə hesablaşma elektrik sayğaclarının göstərişlərinə baxış keçirilməsi üçün məişət abonentlərinə şərait yaratmağa borcludur. [34]

Mənzildə, yaxud ~~xüsusi~~ yaşayış evində quraşdırılmış hesablaşma elektrik sayğacının, o cümlədən üzərindəki plombların qorunmasına və onun işçi vəziyyətdə saxlanılmasına görə mənzil (~~xüsusi~~ yaşayış evinin) kirayəçisi və ya mülkiyyətçisi cavabdehlik daşıyır. [35]

7.12. Dövlət elektroenergetika müəssisəsi, müstəqil enerji istehsalçısı, enerjitəchizatı müəssisəsi və istehlakçı öz elektrik qurğularında “Elektrik qurğularının quraşdırılması qaydaları”na uyğun olaraq texniki nəzarət uçot cihazlarını quraşdırır və istismar edir.

7.13. Hesablaşma elektrik sayğacları elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmadığı hallarda, sərhəddən elektrik sayğacının quraşdırıldığı yerə qədər elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat), şəbəkənin göstərilən hissəsi balansında olan təşkilatın hesabına aid edilir. Elektrik enerjisinin itkiləri (texnoloji sərfiyyat), elektrik enerjisinin alqı-satqı müqaviləsində buraxılacaq elektrik enerjisi göstəricilərində nəzərə alınmalıdır.

Hesablaşma elektrik sayğacları quraşdırılmış yerdən şəbəkənin balans mənsubiyyəti sərhədinə qədər hissəsindəki elektrik enerjisi itkilərinin (texnoloji sərfiyyat) faizi hesabat yolu ilə müvafiq olaraq müqavilə münasibətlərində olan dövlət elektroenergetika müəssisəsi ilə enerjitəchizatı müəssisəsi arasında, enerjitəchizatı müəssisəsi ilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsi ilə abonent arasında və abonent ilə subabonent arasında müəyyənləşdirilir və elektrik enerjisinin alqı-satqı müqaviləsində göstərilir.

Məişət abonentləri ilə elektrik enerjisinə görə hesablaşmalar quraşdırıldığı yerdən asılı olmayaraq, hesablaşma yalnız elektrik sayğacının göstərişinə və bu istehlakçı qrupu üçün müəyyən edilmiş tarifə əsasən aparılır. Məişət abonentləri ilə hesablaşmalarda elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) nəzərə alınmır və ona görə ödəniş tutulmur. [36]

Subabonentlərə elektrik enerjisinin verilişi ilə əlaqədar əsas istehlakçının elektrik şəbəkəsindəki elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat), subabonentlərin hesabına, onların istehlak paylarına mütənasib olaraq aid edilir.

7.14. Enerjitəchizatı müəssisəsinin elektrik şəbəkəsinə istehlakçının şəbəkəsi vasitəsilə tranzitlə elektrik enerjisi verildikdə, istehlakçının enerji-təchizatı müəssisəsinə verdiyi elektrik enerjisinin, istehlakçının şəbəkəsinə daxil olan bütün elektrik enerjisi

miqdarına olan nisbətinə mütənasib olaraq, istehlakçının şəbəkəsindəki elektrik enerjisi itkisinin (texnoloji sərfiyyatın) bir hissəsi enerjitəchizatı müəssisəsinə aid edilir.

7.15. Hesablaşma elektrik sayğaclarının örtük qutularında *Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* plombu olmalıdır.[37]

Dövlət elektroenergetika müəssisəsilə enerjitəchizatı müəssisəsi arasında hesablaşma elektrik sayğacının sıxaclar kolodkasının qapağında onu qidalandıran cərəyan və gərginlik transformatorlarının ayrıcılarının intiqallarında, həmçinin uçot cihazına qoşulan naqillərin yığma sıxaclarında dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisəsinin və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* plombu olmalıdır.

Müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi arasındakı hesablaşma elektrik sayğacının sıxaclar kolodkasının qapağında, onu qidalandıran cərəyan və gərginlik transformatorlarının ayrıcılarının intiqallarında, həmçinin uçot cihazına qoşulan naqillərin yığma sığaclarında müstəqil enerji istehsalçısının, müvafiq olaraq dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin, həmçinin *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* plombu olmalıdır.

Enerjitəchizatı müəssisəsilə istehlakçı arasında hesablaşma elektrik sayğacının sıxaclar kolodkasının qapağında, onu qidalandıran cərəyan və gərginlik transformatorlarının ayrıcılarının intiqallarında, həmçinin uçot cihazına qoşulan naqillərin yığma sığaclarında enerjitəchizatı müəssisəsinin plombu olmalıdır (göstərilən yerlərdə istehlakçı tərəfindən plomb qoyula bilər).

7.16. Hesablaşma uçot cihazlarının dövlət yoxlanışı *Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* müəyyən etdiyi müddətlərdə aparılmalıdır.

7.17. Dövlət elektroenergetika müəssisəsi ilə enerjitəchizatı müəssisəsi arasında, dövlət elektroenergetika müəssisəsi ilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsi ilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsi ilə abonent arasında və abonent ilə subabonent arasında elektrik enerjisinin hesablaşma uçotunun sxeminin dəyişdiril-məsi, həmçinin uçot cihazlarını qidalandıran ölçü transformatorlarının yerlərinin dəyişdirilməsi və əvəz olunması müvafiq olaraq elektrik enerjisinin alqı-satqı münasibətlərində olan tərəfin rəsmi razılığı ilə yerinə yetirilə bilər .

~~Təmir dövründə elektrik enerjisinin uçotu müvafiq olaraq elektrik enerjisinin alqı-satqı münasibətlərində olan tərəflər arasında razılaşdırılmış müvəqqəti sxem üzrə aparılır.~~[38]

*7.18. Enerji təchizatı müəssisəsinin səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.*

*7.19. Enerji təchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərinin sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (enerji təchizatı müəssisəsinin razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma) hallarını müəyyən etdikdə, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.*[39]

## 8. ELEKTRİK ENERJİSİNDƏN (AKTİV VƏ REAKTİV) İSTİFADƏYƏ GÖRƏ HESABLAŞMALAR

8.1. Dövlət elektroenergetika müəssisəsindən enerjitəchizatı müəssisəsinə, enerjitəchizatı müəssisəsindən abonentə, abonentdən subabonentə elektrik enerjisinin verilişi yalnız müvafiq olaraq tərəflər arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsinə əsasən və onlar üçün təyin olunmuş elektrik enerjisinin tariflərinə uyğun aparılır.

Elektrik enerjisinin qiymətləri (tariflər) "Elektroenergetika haqqında", "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunlarına və digər normativ sənədlərə uyğun olaraq dövlət tərəfindən tənzimlənir.

8.2. Elektrik enerjisinə görə hesablaşmalar uçot cihazlarının hesablaşma dövründəki göstərişlərinə əsasən aparılır. Bir qayda olaraq, hesablaşma dövrü 1 ay qəbul olunur. ~~Lazım gəldikdə, tərəflər elektrik enerjisinə görə hesablaşma dövrünü başqa müddətlərdə də müəyyən edə bilərlər, bu halda tərəflər elektrik enerjisinin alqı-satqı müqaviləsində müvafiq qeydlər aparmalıdırlar.~~[40]

*Enerji təchizatı müəssisəsi istehlakçıya verdiyi elektrik enerjisinin dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamalı və hər ay istehlakçıya məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). İstehlakçı tərəfindən elektrik enerjisinin hesabı tam ödənildikdən sonra, enerji təchizatı müəssisəsi tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış elektrik enerjisinin dəyərini enerji təchizatı müəssisəsi istehlakçı tərəfindən ödənilməsini tələb edə bilməz.*

8.3. Dövlət elektroenergetika müəssisəsi ilə enerjitəchizatı müəssisəsi arasında, dövlət elektroenergetika müəssisəsilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsilə müstəqil enerji istehsalçısı arasında, enerjitəchizatı müəssisəsilə abonent arasında və abonent ilə subabonent arasında elektrik enerjisinə görə hesablaşmalar tərəflərin balans mənsubiyyəti sərhədində quraşdırılmış hesablaşma elektrik sayğaclarının göstərişinə (ölçü transformatorları vasitəsilə ölçü aparıldıqda onların əmsalları nəzərə alınmaqla) əsasən aparılır.

Hesablaşma elektrik sayğacı tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmadıqda, hesablaşma elektrik sayğacı quraşdırıldığı yerdən balans mənsubiyyəti sərhədinə qədər elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) hesabat yolu ilə müəyyən edilir və həmin elektrik enerjisi itkisi (texnoloji sərfiyyat) hesablaşma elektrik sayğacının göstərişinə əlavə edilir, yaxud çıxılır.

8.4. Enerjitəchizatı müəssisəsi istehlakçıdan yalnız istifadə olunmuş elektrik enerjisinə görə ödəniş alır, digər ödənişlərin, o cümlədən bu Qaydaların 3.5-ci bəndinə uyğun olaraq istehlakçıya məxsus elektrik qurğularına gərginlik verilməsinə görə ödənişin alınmasına yol verilmir.

8.5. Abonent elektrik enerjisi sərfinə görə subabonentdən aldığı ödənişi elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən olunmuş müddətdə enerjitəchizatı müəssisəsinin hesabına köçürməlidir və abonent tərəfindən bu ödənişin başqa məqsədlər üçün istifadə edilməsinə icazə verilmir.

Abonent ona məxsus elektrik şəbəkəsindən istifadə etdiyinə görə subabonentdən bu şəbəkənin istismarı üzrə işlərin yerinə yetirilməsində iştirakını tələb edə bilər. Abonentin şəbəkəsinin istismarında subabonentin iştirakı onun bu şəbəkəyə daxil olan ümumi elektrik enerjisindəki payına mütənasib müəyyən edilir. Bu məqsədlə abonent və subabonent arasında müqavilə bağlanılır və işlər tərəflərin təsdiq etdiyi xərclər smetasına uyğun aparılır. İstismar xərclərinin elektrik enerjisinin tarif qiymətinə

əlavə edilməsinə icazə verilmir.

8.6. İstehlakçının eyni, yaxud ayrı-ayrı ərazilərdəki müxtəlif tarif qruplarına məxsus olan obyektləri üzrə elektrik enerjisinə görə hesablaşmalar onların hər birinin aid olduğu istehlakçı qrupu üçün müəyyən olunmuş tarifə uyğun aparılır.

8.7. Enerjitəchizatı müəssisəsi hesablaşma dövründə aldığı elektrik enerjisinin haqqını, dövlət elektroenergetika müəssisəsinə onlar arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddət ərzində ödəməlidir.

Hər hansı bir səbəbdən, o cümlədən hesabında vəsait olmadığından, enerjitəchizatı müəssisəsi təqdim edilmiş elektrik enerjisinə görə ödəniş sənədi üzrə ödənişi elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddət ərzində dövlət elektroenergetika müəssisəsinin hesabına köçürmədikdə, hər bir gün üçün ödəniş aparılan günədək ödəmə sənədindəki məbləğin 0,01 faizi miqdarında dəbbə (penya) verilməlidir.

Ödəmə sənədində səhv və ya sayğacların göstərişlərində anlaşılmazlıq aşkar olunarsa, enerjitəchizatı müəssisəsi bu barədə dövlət elektroenergetika müəssisəsinə yazılı məlumat verməlidir. Enerjitəchizatı müəssisəsi yazılı məlumat verdikdən sonra dövlət elektroenergetika müəssisəsi on gündən gec olmayaraq hesablaşmanı və lazım gələrsə sayğacı yoxlamalı, bu yoxlamanın nəticələri haqqında enerjitəchizatı müəssisəsinə məlumat verməlidir. Sayğacın yoxlanılması və ya ödəmə sənədindəki səhv haqqında enerjitəchizatı müəssisəsinin məlumat verməsi, onu təqdim olunan ödəmə sənədi üzrə təyin olunmuş müddətdə ödənişdən azad etmir. Elektrik enerjisinin uçotunda səhv aşkar edildikdə, dövlət elektroenergetika müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddətindən kənara çıxmamaq şərtilə elektrik sayğaclarının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanılması müddətindən sonrakı dövr üçün yenidən hesablaşma aparmalıdır. Əgər sayğac göstəricilərinin xətası *Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* müəyyən etdiyi normalardan artıq deyilsə, onda bu xəta normal sayılır və yenidən hesablaşma aparılması tələb olunmur. Əgər yoxlamanın nəticələrinə görə yenidən hesablaşma aparmaq tələb olunarsa, onda növbəti dövr üçün ödəniş sənədləri yazıldıqda yenidən hesablaşma aparılır.

8.8. Enerjitəchizatı müəssisəsinin təqsiri olmadan, dövlət elektroenergetika müəssisəsilə enerjitəchizatı müəssisəsi arasındakı hesablaşma elektrik sayğacının işi pozulduqda, elektrik enerjisinə görə hesablaşma tərəflərin razılığına əsasən uçot pozulana qədər və ya uçot bərpa edildikdən sonrakı dövrün orta gündəlik sərfinə uyğun aparılır. Elektrik enerjisinin orta gündəlik sərfinə görə hesablaşma dövrü bir aydan artıq olmamalıdır, bu müddət ərzində hesablaşma elektrik sayğacının normal işi dövlət elektroenergetika müəssisəsi tərəfindən bərpa olunmalıdır.

Enerjitəchizatı müəssisəsinin təqsirindən dövlət elektroenergetika müəssisəsi ilə enerjitəchizatı müəssisəsi arasındakı hesablaşma elektrik sayğacı zədələndikdə (plomb qoparıldıqda, baxış şüşəsi sındırıldıqda və s.), onun qoşulma sxemi pozulduqda dövlət elektroenergetika müəssisəsi bu elektrik qurğusunun faktiki maksimal yükünə və hesablaşma elektrik sayğacının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanması tarixindən işləmə saatlarına görə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddəti daxilində, enerjitəchizatı müəssisəsinə yenidən hesablaşma aparılmalıdır. Hesablaşma elektrik sayğacının normal işinin bərpa olunması enerjitəchizatı müəssisəsinin vəsaiti hesabına həyata keçirilir.

~~8.9. İstehlakçı (məişət abonenti istisna olmaqla) hesablaşma elektrik sayğacının göstərişi haqqında məlumat vermədikdə, hesablaşma əvvəlki dövr üçün müəyyən olunmuş orta gündəlik elektrik enerjisi sərfinə uyğun aparılır və orta gündəlik elektrik enerjisi sərfinə uyğun hesablaşma bir hesablaşma dövründən artıq olmamalıdır, dövr başa çatdıqdan sonra göstərilən hal davam edərsə, elektrik enerjisinin sərfi istehlakçının (məişət abonenti istisna olmaqla) cərəyan qəbuledicilərinin gücünə və işləmə saatlarına uyğun olaraq müəyyənləşdirilir. Bu qayda elektrik sayğaclarının göstərişi haqqında istehlakçı (məişət abonenti istisna olmaqla) məlumat verənədək davam etdirilir və həmin dövr üçün elektrik enerjisinin yenidən hesablaşması aparılmır.~~ [41]

8.10. İstehlakçının (məişət abonenti istisna olmaqla) baş transformatoru enerjitəchizatı müəssisəsinin elektrik veriliş xəttinə bilavasitə qoşulduqda və hesablaşma elektrik sayğacı baş transformatordan sonra orta (alçaq) gərginlik tərəfində quraşdırıldıqda istehlakçı ilə (məişət abonenti istisna ol-maqla) elektrik enerjisi sərfinə görə hesablaşmada hər 1 kVts elektrik enerjisinə görə nəzərdə tutulmuş ödənişi müvafiq olaraq ikidolaqlı transformatorlar üçün 1,03 və üçdolaqlı transformatorlar üçün 1,05 yüksəldici əmsala vurulur. Bu halda baş transformatordakı elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) hesabat yolu ilə müəyyənləşdirilir, hesablaşma elektrik sayğacının göstərişi ilə cəmlənir və həmin elektrik enerjisi itkilərinə (texnoloji sərfiyyat) görə istehlakçıdan əlavə ödəniş tutulmur.

8.11. İstehlakçının (məişət abonenti istisna olmaqla) baş transformatorunun yüksək tərəfinə onun balansında olan elektrik veriliş xətti qoşulduqda və hesablaşma elektrik sayğacı baş transformatorun yüksək və ya orta (alçaq) tərəfində quraşdırıldıqda göstərilən elektrik veriliş xəttindəki elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) hesabat yolu ilə müəyyənləşdirilir, hesablaşma elektrik sayğacının göstərişi ilə cəmlənir və onun dəyəri müəyyən edilmiş tarif üzrə istehlakçı (məişət abonenti istisna olmaqla) tərəfindən ödənilir.

8.12. Enerjitəchizatı müəssisəsi öz vəsaiti hesabına elektrik enerjisinə görə hesablaşmada əvvəlcədən ödəmə üsulunu tətbiq edə bilər. Bu halda elektrik enerjisinə görə hesablaşma aparmaq üçün əvvəlcədən ödəmə sistemli elektrik sayğaclarından istifadə olunur.

8.13. Elektrik enerjisinə görə hesablaşmalar enerjitəchizatı müəssisəsinin abonentə təqdim etdiyi ödəniş sənədlərinə əsasən aparılır. Abonentin subabonenti olduğu hallarda, onun və subabonentlərin sərf etdiyi elektrik enerjisinə görə bir ödəniş sənədi yazılır.

Subabonent bilavasitə enerjitəchizatı müəssisəsi ilə elektrik enerjisinə görə hesablaşmalar apardıqda, onun elektrik enerjisi sərfi tranzit elektrik enerjisi itkiləri (texnoloji sərfiyyat) nəzərə alınmaqla abonentin sərfindən çıxılmalıdır.

8.14. İstehlakçı *(o cümlədən məişət abonenti)* hesablaşma dövründə ona buraxılmış elektrik enerjisinin haqqını enerjitəchizatı müəssisəsi tərəfindən ödəmə sənədi təqdim edildikdən sonra bir ay müddətində ödəməlidir. [42]

~~İstehlakçı (məişət abonenti istisna olmaqla) hər hansı bir səbəbdən, o cümlədən hesabında vəsait olmadığından, istehlakçıya (məişət abonenti istisna olmaqla) təqdim edilmiş elektrik enerjisinə görə ödəniş sənədi üzrə ödənişi beş bank günü ərzində enerjitəchizatı müəssisəsinin hesabına köçürmədikdə, hər bir gün üçün ödəniş aparılan günədək ödəmə sənədindəki məbləğin 0,01 faizi miqdarında dəbbə (penya) verilməlidir.~~

~~İstehlakçı (məişət abonenti istisna olmaqla) enerjitəchizatı müəssisəsi tərəfindən ödəmə sənədi təqdim edildikdən sonra beş bank günü ərzində ödənişi enerjitəchizatı müəssisəsinin hesabına köçürmədikdə, dəbbə (penya) tutulması hüququndan asılı olmayaraq, enerjitəchizatı müəssisəsi üç gün əvvəl xəbərdar etməklə, elektrik enerjisi haqqını ödəməyən istehlakçının borc ödənilənədək enerjitəchizatını dayandırmaq hüququna malikdir. Elektrik enerjisi təchizatı dayandırıldığı müddətdə istehlakçıdan dəbbə (penya) tutulmur.~~

8.15. Ödəmə sənədində səhv və ya sayğacların göstərişlərində anlaşılmazlıq aşkar olunarsa, istehlakçı, o cümlədən məişət abonenti bu barədə enerjitəchizatı müəssisəsinə yazılı məlumat verməlidir. İstehlakçı, o cümlədən məişət abonenti yazılı

məlumat verdikdən sonra enerjitəchizatı müəssisəsi on gündən gec olmayaraq hesablaşmanı, lazım gələrsə, sayğacı yoxlamalı və bu yoxlamanın nəticələri haqqında ona məlumat verməlidir. ~~Sayğacın yoxlanılması və ya ödəmə sənədindəki səhv haqqında istehlakçının, o cümlədən məişət abonentinin məlumat verməsi, onu təqdim olunan ödəmə sənədi üzrə müəyyən olunmuş müddətdə ödənişdən azad etmir. Elektrik enerjisinin uçotunda səhv aşkar edildikdə, enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddətindən kənara çıxmamaq şərti ilə elektrik sayğaclarının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanılması müddətindən sonrakı dövr üçün yenidən hesablaşma aparmalıdır.~~ Əgər sayğac göstəricilərinin xətası *Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* müəyyən etdiyi normalardan artıq deyilsə, onda bu xəta normal sayılır və yenidən hesablaşma aparılması tələb olunmur. *Əgər yoxlamanın nəticələrinə görə yenidən hesablaşma aparmaq tələb olunarsa, onda növbəti dövr üçün ödəniş sənədləri yazıldıqda, elektrik sayğaclarına onların qoşulma sxeminin işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə keçirilmiş sonuncu baxış tarixindən üç aydan çox olmayan müddətdə yenidən hesablaşma aparılır.*[43]

8.16. İstehlakçının, o cümlədən məişət abonentinin təqsiri olmadan uçot müvəqqəti pozulduqda, elektrik enerjisi sərfinin hesabatı enerjitəchizatı müəssisəsinin və istehlakçının razılığına əsasən uçot pozulana qədər və ya ucot bərpa edildikdən sonrakı dövrün orta gündəlik sərfinə uyğun aparılır. Elektrik enerjisinin orta gündəlik sərfinə görə hesablaşma dövrü bir aydan artıq olmamalıdır, bu müddət ərzində hesablaşma elektrik sayğaclarının normal işi enerjitəchizatı müəssisəsi tərəfindən bərpa olunmalıdır.

*8.17. İstehlakçı (o cümlədən məişət abonenti) tərəfindən elektrik enerjisinin talanması məqsədilə hesablaşma elektrik sayğacları zədələndikdə (plomb qoparıldıqda, baxış şüşəsi sındırıldıqda, gövdəsi zədələndikdə və sayğaca vizual baxış nəticəsində qüsurun müəyyən edilməsi mümkün olan digər hallarda), sayğacların qoşulma sxemləri pozulduqda, enerji təchizat müəssisəsi tərəfindən bu Qaydaların 7.18-ci və 7.19-cu bəndləri nəzərə alınmaqla, pozuntu aradan qaldırılmalı və bu Qaydaların 10.18.9-2-ci yarımbəndinə uyğun olaraq elektrik sayğaclarına və onların qoşulma sxeminin işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə keçirilmiş sonuncu baxış tarixindən üç aydan çox olmayan müddətdə istifadə edilmiş elektrik enerjisinin dəyəri elektrik qəbuledicilərinin gücü məişət abonentlərinə münasibətdə sutkanın 24 saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla yenidən hesablanır.*[44]

*8.17-1. İstehlakçı (o cümlədən məişət abonenti) hesablaşma elektrik sayğacından kənar elektrik xətti vasitəsilə elektrik şəbəkəsinə qanunsuz qoşulduqda, enerji təchizat müəssisəsi tərəfindən bu Qaydaların 7.18-ci və 7.19-cu bəndləri nəzərə alınmaqla qanunsuz elektrik xətti açılmalı və bu Qaydaların 10.18.9-1-ci yarımbəndinə uyğun olaraq elektrik şəbəkəsinə qoşulmaqla, elektrik enerjisinin talanması hallarının qarşısının alınması məqsədilə paylayıcı qurğulara keçirilmiş sonuncu baxış tarixindən on iki aydan çox olmayan müddətdə istifadə edilmiş elektrik enerjisinin dəyəri sayğacdan kənar çəkilmiş elektrik naqilinin en kəsiyindən buraxıla bilən maksimum cərəyan, gərginlik və məişət abonentlərinə münasibətdə sutkanın 24 saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla yenidən hesablanır. İstehlakçı (o cümlədən məişət abonenti) hesablaşma elektrik sayğacını xüsusi qurğu vasitəsilə sxemdən kənarlaşdırdıqda, enerji təchizat müəssisəsi tərəfindən bu Qaydaların 7.18-ci və 7.19-cu bəndləri nəzərə alınmaqla pozuntu aradan qaldırılmalı, on iki aydan çox olmayan müddətdə istifadə edilmiş elektrik enerjisinin dəyəri elektrik qəbuledicilərinin gücü məişət abonentlərinə münasibətdə sutkanın 24 saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla yenidən hesablanır.* [45]

*8.17-2. İstehlakçı (o cümlədən məişət abonenti) tərəfindən bu Qaydaların 8.17-ci və 8.17-1-ci bəndlərində nəzərdə tutulan hallara yol verildiyi aşkar edildikdə, enerji təchizatı müəssisəsinin nümayəndəsi onun iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini istehlakçıya təqdim etməlidir. Enerji təchizatı müəssisəsinin nümayəndəsi tərtib etdiyi akta vurulmuş zərərin bu Qaydaların 8.17-ci və 8.17-1-ci bəndlərinə uyğun olaraq hesablanmış məbləği barədə ilkin məlumatı əlavə edir. Akt enerji təchizatı müəssisəsinin nümayəndəsi və istehlakçı tərəfindən imzalanmalıdır. İstehlakçı aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və yol verilmiş pozuntu texniki vasitələrlə (foto və ya videoçəkiliş aparılmaqla) qeydə alınır. İstehlakçı izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.*

8.18. İstehlakçı, o cümlədən məişət abonenti tutduğu ərazidən, binadan köçdükdə, öz fəaliyyətini dayandırdıqda və ya ləğv edildikdə o, on gün əvvəl enerjitəchizatı müəssisəsinə elektrik enerjisinin alqı-satqı müqaviləsinin ləğv olunması barədə müraciət etməli və sonuncu günə qədər istifadə etdiyi elektrik enerjisinin haqqını ödəməlidir. Yeni istehlakçının, o cümlə-dən məişət abonentinin elektrik şəbəkəsinə qoşulması və sənədləşdirilməsi bu Qaydalara uyğun aparılır.

8.19. İstehlakçı (məişət abonenti istisna olmaqla) elektrik enerjisinin alqı-satqı müqaviləsindəki enerji sərfinin göstəricilərini artırmaq və ya azaltmaq istədikdə, o bu barədə enerji-təchizatı müəssisəsinə bir ay əvvəl müraciət etməlidir. Enerjitəchizatı müəssisəsi istehlakçının müraciətinə on gün ərzində baxır və razılıq verdikdə elektrik enerjisinin alqı-satqı müqaviləsində uyğun dəyişikliklər edir. [46]

8.20. Yaşayış binasının mülkiyyətçisi və ya mənzil kommunal təşkilatı binanın ümumi ehtiyacları və texniki məqsədlərə (həyətin, küçənin, pilləkənlərin işıqlandırılması, nasosxanalar, liftlər və s.) sərf olunan elektrik enerjisinə görə enerjitəchizatı müəssisəsi ilə elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlayır.

Yaşayış binasının mənzil kirayəçisi, yaxud mülkiyyətçisi ilə, həmçinin ~~xüsusi~~ yaşayış evinin mülkiyyətçisi (məişət abonenti) ilə enerjitəchizatı müəssisəsi arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılır, enerjitəchizatı müəssisəsi onların adına şəxsi hesab açır ~~və hər birinə istifadə etdikləri elektrik enerjisinə görə ödəniş sənədini müstəqil halda yazmaq üçün qəbzlər və bildiriş blankları olan hesablaşma kitabçalarını verir (özünəxidmət üsulu)~~. [47]

8.21. Elektrik enerjisinin alqı-satqı müqaviləsini, şəxsi hesabın digər məişət abonentinin adına keçirilməsi onların müraciətlərinə əsasən enerjitəchizatı müəssisəsi tərəfindən beş gün ərzində baxılır və həll edilir.

Elektrik şəbəkəsinə əvvəllər qoşulmuş yaşayış binasındakı mənzilə yeni kirayəçi, yaxud mülkiyyətçi və ya ~~xüsusi~~ yaşayış evinə yeni mülkiyyətçi köçdükdə, həmin məişət abonenti ilə enerjitəchizatı müəssisəsi arasında beş gün müddətində elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılmalıdır və enerjitəchizatı müəssisəsi onun adına şəxsi hesab *açmalıdır* ~~açır və istifadə edilən elektrik enerjisinə görə ödəniş sənədini müstəqil halda yazmaq üçün qəbzlər və bildiriş blankları olan hesablaşma kitabçasını verir (özünəxidmət üsulu)~~. [48]

8.22. Məişət abonenti mənzildən və ya ~~xüsusi~~ yaşayış evindən köçərkən, həmin mənzilin və ya ~~xüsusi~~ yaşayış evinin yeni mülkiyyətçisi, yaxud kirayəçisi ondan köçdüyü günə qədər istifadə etdiyi elektrik enerjisinin haqqının ödənilməsi və elektrik enerjisi sərfinə görə borcunun olmaması barədə enerjitəchizatı müəssisəsinin arayışını tələb etməlidir. [49]

8.23. Məişət abonenti mənzildən köçdükdən sonra, yeni sakin mənzilə köçənə qədər, mənzildə quraşdırılmış hesablaşma

elektrik sayğacının qorunmasına və işçi vəziyyətdə saxlanmasına görə yaşayış binasının mülkiyyətçisi və ya mənzil istismar təşkilatı cavabdehlik daşıyır.

8.24. Yaşayış və digər binaların mülkiyyətçisi binalardakı sahələri müəssisə və təşkilatlara icarəyə verdikdə, icarədara məxsus elektrik qurğularının və avadanlıqların elektrik şəbəkəsinə qoşulması bu Qaydaların tələblərinə uyğun aparılır. İcarədar sahədən istifadəyə görə bina mülkiyyətçisi ilə müqavilə bağladıqdan sonra icarəyə götürdüyü sahənin elektrik şəbəkə-sinə qoşulması üçün beş gün müddətində enerjitəchizatı müəssisəsinə müraciət etməlidir.

8.25. Yaşayış binasının mülkiyyətçisi və ya mənzil istismar təşkilatı binanın ümumi ehtiyaclan və texniki məqsədlər (həyətin, küçənin, pilləkənlərin işıqlandırılması, nasosxanalar, liftlər və s.) üçün sərf etdiyi elektrik enerjisinə görə şəbəkənin balans mənsubiyyəti sərhəd nöqtəsində quraşdırılmış hesablaşma elektrik sayğacı vasitəsilə, bu qrup istehlakçılar üçün müəyyən edilmiş tarif üzrə enerjitəchizatı müəssisəsi ilə hesablaşır.

8.26. Məişət abonentləri ilə elektrik enerjisinə görə hesablaşmalar~~özünəxidmət üsuluna,~~ əvvəlcədən ödəmə üsuluna və ya enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri tərəfindən yazılmış ödəmə sənədlərinə əsasən aparılır. [50]

~~8.27. Özünəxidmət üsulu tətbiq edildikdə xüsusi hesablaşma kitabçasında enerjitəchizatı müəssisəsinin göstərdiyi hesablaşma dövründə sayğacının göstərişinin qeyd edilməsi və elektrik enerjisi sərfinə görə ödəniş sənədinin yazılması məişət abonentinin özü tərəfindən aparılır (6 nömrəli əlavə).~~ [51]

8.28. *Hesablaşma* sayğacının göstərişinin qeyd edilməsi və elektrik enerjisi sərfinə görə ödəniş sənədinin yazılması enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri tərəfindən yerinə yetirilir (7 nömrəli əlavə). Səlahiyyətli nümayəndələr mənzilə gələrkən sakinlərin tələbi ilə xidməti vəsiqələrini təqdim etməyə borcludurlar. Məişət abonenti mənzilində olmadıqda ödəniş sənədi bildiriş, qəbz, onunla birgə yaşayan başqa sakinə təqdim edilir. *Elektrik enerjisi sərfinə görə ödəniş sənədləri, bildirişlər və qəbzlər məişət abonentinin təqdim etdiyi elektron poçt ünvanına və (və ya) mobil nömrəyə SMS-lə göndərilə bilər.* [52]

8.29. Kommunal mənzildə hesablaşma dövründə ümumi yerlərdə (dəhlizdə, mətbəxdə, sanitar qovşaqda və s.) sərf olunan elektrik enerjisinin miqdarı, ayrı-ayrı məişət abonentləri arasında faktiki yaşayan sakinlərin sayı üzrə bölünür.

~~8.30. Özünəxidmət üsulu tətbiq edildikdə, hesablaşma kitabçasında müəyyən olunmuş gündən, yaxud enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri tərəfindən elektrik enerjisinə görə ödəniş sənədi təqdim edildiyi gündən sonra, məişət abonenti on gün müddətində poçt və ya bank şöbələri vasitəsilə elektrik enerjisinin haqqını ödəməlidir.Müstəsna hallarda yaxınlıqda poçt və ya bank şöbəsi olmadıqda, kənd yerlərində məişət abonentlərindən elektrik enerjisinə görə ödənişin yığılması müqavilə əsasında enerjitəchizatı müəssisəsinin işçiləri tərəfindən aparıla bilər.~~

~~8.31. Məişət abonenti müəyyən olunmuş gündən sonra on gün müddətində ödəniş sənədi üzrə sərf etdiyi elektrik enerjisinin haqqını ödəmədikdə, sonrakı hər bir gün üçün ödəniş aparılan günədək, ödəniş sənədindəki məbləğin 0,01 faizi miqdarında dəbbə (penya) verməlidir. Məişət abonenti bundan sonrakı iyirmi gün müddətində ödəniş sənədi üzrə elektrik enerjisinin haqqını ödəmədikdə dəbbə (penya) tutulması hüququndan asılı olmayaraq, enerjitəchizatı müəssisəsi üç gün əvvəl xəbərdar etməklə onu enerjiyə görə borc ödənilənədək elektrik şəbəkəsindən aça bilər. Elektrik şəbəkəsindən açıldığı müddətdə məişət abonentindən dəbbə (penya) tutulmur.~~

~~8.32. Məişət abonenti (mənzillər üzrə hesablaşma elektrik sayğacı yaşayış binasının girişində, yaxud pilləkən meydançasında quraşdırılmış məişət abonenti istisna olmaqla) tərəfindən hesablaşma elektrik sayğaclarının qoşulma sxeminin dəyişdirilməsi, sayğacın baxış şüşəsinin sındırılması, plombunun qırılması, sayğacın diskinin süni şəkildə dayandırılması və elektrik enerjisindən istifadə göstərişini azaltmaq məqsədilə edilmiş digər pozuntulara yol verildiyi aşkar edildikdə, enerjitəchizatı müəssisəsi onu şəbəkədən açmalı və hesablaşma elektrik sayğacının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanması tarixindən sonrakı müddət üçün, ancaq Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddəti daxilində elektrik enerjisindən istifadəyə görə yenidən hesablaşma aparmağa borcludur. Məişət abonenti (mənzillər üzrə hesablaşma elektrik sayğacı yaşayış binasının girişində, yaxud pilləkən meydançasında quraşdırılmış məişət abonenti istisna olmaqla) tərəfindən göstərilən pozuntulara yol verildikdə, elektrik enerjisindən istifadəyə görə yenidən hesablaşma aşağıdakı kimi aparılır:~~

~~a) məişət abonentində şəbəkəyə bilavasitə qoşulan elektrik sayğacı quraşdırıldıqda, sayğacın nominal cərəyanı, gərginlik və sutkanın 24 saatı ərzində elektrik enerjisindən istifadə edildiyi nəzərə alınmaqla hesabat aparılır;~~

~~b) məişət abonentində ölçü transformatoru vasitəsilə elektrik sayğacı quraşdırıldıqda, cərəyan transformatorunun yüksək tərəfindəki nominal cərəyanı, gərginlik və sutkanın 24 saatı ərzində elektrik enerjisindən istifadə edildiyi nəzərə alınmaqla hesabat aparılır.~~

~~Məişət abonenti hesablaşma elektrik sayğacından kənar elektrik xətti çəkmişdirsə, yaxud elektrik sayğacının göstərişini təhrif etmək üçün qurğu quraşdırmışdırsa, həmçinin mənzildə quraşdırılmış hesablaşma elektrik sayğacını zədələyərək onu sıradan çıxarmışdırsa və ya sayğacı sxemdən çıxarmışdırsa, enerjitəchizatı müəssisəsi onu şəbəkədən açmalı və hesablaşma elektrik sayğacının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanması tarixindən sonrakı müddət üçün ancaq Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddəti daxilində elektrik enerjisinə görə yenidən hesablaşma aparmağa borcludur. Məişət abonenti tərəfindən göstərilən pozuntulara yol verildikdə, elektrik enerjisindən istifadəyə görə yenidən hesablaşma məişət abonentini qidalandıran elektrik naqilinin cərəyan yükünü, gərginlik və sutkanın 24 saatı ərzində elektrik enerjisindən istifadə edildiyi nəzərə alınmaqla hesabat aparılır.~~

~~8.33. Məişət abonenti tərəfindən elektrik enerjisindən istifadədə pozuntuya yol verildiyi aşkar edildikdə, enerjitəchizatı müəssisəsinin nümayəndəsi onun və iki nəfər hal şahidinin iştirakı ilə akt tərtib edir və aktın bir nüsxəsini məişət abonentinə verir. Akt enerjitəchizatı müəssisəsinin nümayəndəsi, məişət abonenti və iki nəfər hal şahidi tərəfindən imzalanmalıdır. Məişət abonenti aktı imzalamaqdan imtina etdikdə bu barədə aktda müvafiq qeyd aparılır. Məişət abonenti izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.~~

~~Aktın əsasında enerjitəchizatı müəssisəsi qeydə alınmamış elektrik enerjisinin miqdarını müəyyən edir və məişət abonentinə əlavə ödəniş sənədi yazır. Enerjitəchizatı müəssisəsinin qərarına məişət abonentinin etiraz ərizəsi verməsi onu qoyulmuş müddətdə ödəniş sənədi üzrə elektrik enerjisinin haqqını ödəməkdən azad etmir. Məişət abonenti on gün müddətində əlavə ödəniş sənədi üzrə elektrik enerjisi haqqını ödəmədikdə, enerjitəchizatı müəssisəsi bu Qaydaların 8.31-ci bəndinə uyğun olaraq onu elektrik şəbəkəsindən aça bilər. Tərəflər iddia ilə məhkəməyə müraciət edə bilərlər.~~

8.34. Enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri istehlakçının, o cümlədən məişət abonentinin hesablaşma elektrik sayğacına baxış keçirmək və göstərişini yazmaq üçün elektrik sayğacı quraşdırılmış yerə maneəsiz buraxılmalıdırlar. Enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri istehlakçının, o cümlədən məişət abonentinin tələbi ilə xidməti vəsiqəni təqdim etməyə borcludurlar. ~~Enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərində hesablaşma elektrik sayğacına baxış keçirərkən, xidməti vəsiqə ilə yanaşı baxışın keçirilməsi haqqında qərarın surətini və baxışın Sahibkarlıq~~

~~sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidirlər~~.[53]

~~Hesablaşma elektrik sayğacına baxış keçirilməsi və göstərişinin yazılması üçün enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri istehlakçı (məişət abonenti istisna olmaqla) tərəfindən elektrik sayğacının quraşdırıldığı yerə buraxılmadıqda, enerjitəchizatı müəssisəsi üç gün əvvəl xəbərdar etməklə istehlakçının (məişət abonenti istisna olmaqla) elektrik enerjisi təchizatını dayandıra bilər.~~

Hesablaşma elektrik sayğacına baxış keçirilməsi və göstərişinin yazılması üçün enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələri məişət abonenti tərəfindən iki hesablaşma dövrü müddətində elektrik sayğacının quraşdırıldığı yerə buraxılmadıqda, onlar məişət abonentinə bununla əlaqə-dar rəsmi bildiriş verirlər. ~~Sonrakı dövr başa çatdıqda bu hal davam edərsə, enerjitəchizatı müəssisəsi üç gün əvvəl xəbərdar etməklə məişət abonentinin elektrik enerjisi təchizatını dayandıra bilər.~~ [54]

8.35. Enerjitəchizatının subyektləri arasında elektrik enerjisindən istifadədə və ya elektroenergetika sahəsində digər mübahisəli məsələlərə tərəflərdən birinin müraciətinə əsasən *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* səlahiyyəti çərçivəsində baxıb, rəy verə bilər.

Enerjitəchizatının subyektləri (dövlət elektroenergetika müəssisəsi, müstəqil enerji istehsalçıları, enerjitəchizatı müəssisələri, istehlakçılar, o cümlədən məişət abonentləri) arasında bütün mübahisəli məsələlərlə əlaqədar tərəflər bilavasitə məhkəməyə müraciət edə bilərlər.

## 9. İSTEHLAKÇILARIN MƏSULİYYƏTİ VƏ ONLARA ELEKTRİK ENERJİSİ VERİLİŞİNİN DAYANDIRILMASI ŞƏRTLƏRİ

9.1. İstehlakçı sərəncamındakı elektrik qurğularının texniki vəziyyətinə, təhlükəsizlik texnikası qaydalarına əməl olunmasına və düzgün istismarına, elektrik enerjisindən səmərəli istifadəsinə, elektrik enerjisi sərfi üzrə müqavilə göstəricilərinin və rejimlərin yerinə yetirilməsinə, sərf edilmiş elektrik enerjisi haqqının vaxtında ödənilməsinə, ~~elektrik enerjisinin keyfiyyətinin təmin olunmasına və~~ mövcud qaydalara uyğun olaraq operativ intizama riayət edilməsinə, həmçinin*Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* nümayəndələrinin tələbnamələrinin vaxtında icra olunmasına görə məsuliyyət daşıyır.[55]

9.2. "Elektrik qurğularının texniki istismar qaydaları"nda və "Elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydaları"nda nəzərə alınmamış xüsusi istehsalat şəraitində elektrik qurğuları istismar edildikdə (yeraltı partlayış təhlükəli istehsalatda, elektrikdartıcı qurğular və s.) istehlakçı bu cür elektrik qurğularının istismarı və onlara təhlükəsiz xidmət üzrə təlimatlara malik olmalıdır.

9.3. Elektrik qurğularının etibarlı və təhlükəsiz istismarını və elektrik enerjisindən qənaətlə istifadə olunmasını təmin etmək üçün istehlakçı, o cümlədən subabonent aşağıdakıları yerinə yetirməlidir:

9.3.1. ona məxsus olan elektrik qurğularının və mühafizə vasitələrinin texniki vəziyyətini yoxlamağa, profilaktik sınaqlar keçirməyə və təmir etməyə, həmçinin mövcud qaydalarla və normalarla müəyyən edilmiş həcmlərdə və müddətlərdə paylayıcı qurğuları, transformatorları və onların yerləşdiyi tikililəri təmir etməyə;

9.3.2. qəza zamanı enerjisistemdə yük çıxarıldıqda məsul yükləri ayıraraq ehtiyatlandırılmış xarici təchizat elektrik xətlərinə qoşmaqla texnoloji və qəza bronlarının tələbatını təmin etmək üçün elektrik təchizatı sxemini təkmilləşdirməyə;

9.3.3. enerjitəchizatı müəssisəsi tərəfindən rele mühafizələrinə, avtomat və qoruyucu qurğulara qoyulmuş işləmə hədlərinə (ustavka) riayət etməyə, ehtiyatın avtomatik qoşulması qurğularının quraşdırılmasını enerjitəchizatı müəssisəsilə razılaşdırmağa, onlarda müəyyən olunmuş müddətlərdə profilaktik sınaq və sazlama işlərini aparmağa;

9.3.4. enerjitəchizatı müəssisəsinin və*Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbinə əsasən istehlakçının elektrik qurğularının işi ilə müəyyənləşdirilən elektrik enerjisinin keyfiyyətinə fasiləsiz, vaxtaşırı və epizodik nəzarət etməyə, balans mənsubiyyəti sərhədində və şəbəkəsində elektrik enerjisinin keyfiyyət göstəricilərini qüvvədə olan standartların tələblərinə uyğun saxlamağa;

9.3.5. "Elektrik qurğularının quraşdırılması qaydaları"nın tələblərinə uyğun olaraq, elektrik enerjisi istehlakının texniki-nəzarət uçotunu təşkil və istismar etməyə;

9.3.6. elektrik qurğularına xidmət üçün ixtisaslı elektrotexniki heyətlə təmin etməyə, elektrik qurğularına xidmət edən heyəti öyrətməyə, təlimatlandırmağa və onları avadanlıqlaşdırılmış iş yeri ilə, mühafizə vasitələri ilə, alətlərlə, lazımi materiallarla və təlimatlarla təmin etməyə;

9.3.7 qəzaya və yanğına qarşı təhlükəsizlik texnikası üzrə tədbirləri həyata keçirməyə;

9.3.8 elektrik enerjisi istehlakı rejimlərinə, elektrik enerjisinin səmərəli və qənaət ilə istifadəsinə, elektrik təsərrüfatının texniki vəziyyətinə və səlahiyyəti daxilində digər məsələlərə nəzarət etmək üçün *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin (onların xidməti vəsitələri əsasında) günün istənilən vaxtı maneəsiz elektrik qurğularına buraxılmasını təmin etməyə;

9.3.9. elektrik enerjisindən səmərəli istifadə olunmasında, elektrik qurğularının layihələndirilməsində, tikintisində, yenidən qurulmasında, təmirində, həmçinin onların istismarında texniki istismar qaydalarının, təhlükəsizlik texnikası qaydalarının, elektrik qurğularının quraşdırılması qaydalarının və digər texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasında aşkar edilmiş pozuntu və çatışmazlıqların aradan qaldırılması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin rəsmi tələbnamələrini müəyyən olunmuş müddətlərdə yerinə yetirməyə.[56]

9.4. İstehlakçı hesablaşma elektrik sayğaclarındakı bütün nasazlıqlar və onun qoşulma sxeminin pozulması, həmçinin tikililərində və ya ərazisində yerləşən enerjitəchizatı müəssisəsinə məxsus elektrik qurğularında və avadanlıqlardakı nasazlıqlar haqqında enerjitəchizatı müəssisəsinə məlumat verməlidir.

9.4. İstehlakçının elektrik verilişi xətlərindən, paylayıcı qurğularından və transformator yarımstansiyalarından enerjitəchizatı müəssisəsinin başqa istehlakçılarına tranzitlə elektrik enerjisi ötürüldükdə, onların təmirə çıxarılması, həmçinin göstərilən elektrik qurğularının təmirdən sonra şəbəkəyə qoşulması yalnız enerjitəchizatı müəssisəsinin icazəsi ilə yerinə yetirilir.

9.5. İstehlakçı "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na və "Gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na əsasən ona məxsus elektrik qurğularının qorunmasını, onlara sərbəst keçməyi və yanaşmağı təmin etməli, həm-çinin kabel və hava elektrik verilişi xətlərinin mühafizə zonalarında hər hansı bir obyektin tikintisinə, materialların yığılmasına, kabel və hava elektrik verilişi xətləri mənsub olan təşkilatın icazəsi olmadan torpaq və tikinti işlərinin aparılmasına yol verməməlidir.

9.7. İstehlakçı ərazisindəki yarımstansiyaların enerjitəchizatı müəssisəsinə aid tranzit hissəsində operativ əməliyyatlar, şəbəkədə tikinti və təmir işləri aparmaq üçün enerjitəchizatı müəssisəsinin elektrotexniki heyətinin bu qurğulara buraxılmasını təmin etməyə borcludur. İşlər başa çatdıqda enerjitəchizatı müəssisəsi öz hesabına işlər aparılmış əraziləri və tikililəri lazımi vəziyyətə gətirməyə borcludur.

~~9.8. İstehlakçı (məişət abonenti istisna olmaqla) aşağıdakı məlumat və hesabatları təqdim etməyə borcludur:~~[57]

~~9.8.1. hesabat vermə qaydalarına uyğun olaraq, təsdiq olunmuş formalarla müəyyən edilmiş müddətlərdə elektrik enerjisinin sərfi, elektrik enerjisinin sərfi normalarının yerinə yetirilməsi və başqa göstəricilər haqqında enerjitəchizatı müəssisəsinə və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* hesabat verməyə;~~

~~9.8.2. enerjitəchizatı müəssisəsinin və ya *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbilə, enerjitəchizatı müəssisəsindən alınmış, subabonentlərə ötürülmüş elektrik enerjisinin miqdarını hesablayan elektrik sayğaclarının (uçot sistemlərinin) göstərişlərinin hər bir hesablaşma dövrünün sonuncu günündə 24 saatlıq qeydiyyatını aparmağa, nəticələri barədə enerjitəchizatı müəssisəsinə və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* məlumat verməyə;~~

~~9.8.3 ildə iki dəfədən az olmayaraq, xarakterik yay və qış iş günlərində, aktiv və reaktiv elektrik enerjisinin sərfi qrafiklərini enerjitəchizat müəssisəsinə və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* təqdim etməyə;~~

~~9.8.4. enerjitəchizatı müəssisəsinə gələn il üçün elektrik enerjisinin sərfi üzrə sifarişlər verməyə;~~

~~9.8.5. *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* və enerjitəchizatı müəssisəsinin rəsmi tələbi ilə aktiv və reaktiv elektrik enerjisinin gündəlik və aylıq sərfini, enerjisistemin maksimal və minimal yük saatlarında hər 30 dəqiqədən bir aktiv və reaktiv elektrik enerjisi sərfini hesablamağa və məlumat verməyə.~~

~~Elektrik enerjisinin gündəlik sərfinin və faktiki yüklərin (aktiv və reaktiv) qeydiyyatı nömrələnmiş və qaytanlanmış jurnalda aparılmalıdır.~~

9.9. İstehlakçı qidalandırıcı elektrik veriliş xətlərinin açılması, elektrik qurğularının və avadanlığın zədələnməsi ilə əlaqədar baş vermiş qəzalar, yanğınlar, həmçinin elektrik cərəyanının təsirindən insanların xəsarət alması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* məlumat verməlidir.

9.10. İstehlakçı sərf etdiyi elektrik enerjisinin haqqının vaxtında, müəyyən edilmiş tarif qiymətinə uyğun tam həcmdə ödənilməsini təmin etməlidir.

9.11. İstehlakçıya elektrik enerjisinin verilişi və fasilələr elektrik enerjisinin alqı-satqı müqaviləsinə əsasən və onun enerjitəchizatı etibarlığının kateqoriyasına uyğun həyata keçirilir.

Elektrik enerjisi istehlakının məhdudlaşdırılması, həmçinin istehlakçının yük qrafikinin tənzimlənməsi üzrə tədbirlər bu Qaydalara və müvafiq təlimata uyğun həyata keçirilir.

~~9.12. *Enerji Məsələlərini Tənzimləmə Agentliyi* üç gün əvvəl rəsmi xəbərdar etməklə, aşağıdakı hallarda istehlakçıya elektrik enerjisi verilişinin tam, yaxud qismən dayandırılmasını enerjitəchizatı müəssisəsindən və (və ya) əsas istehlakçıdan tələb etmək hüququna malikdir:~~

~~9.12.1. istehlakçının elektrik qurğularının qeyri-kafi vəziyyəti qəza, yanğınların baş verməsinə, elektrotexniki heyətin, əhalinin həyatı üçün təhlükə yaratdıqda;~~

~~9.12.2. müəyyən edilmiş elektrik enerjisi sərfi rejimlərini pozduqda;~~

~~9.12.3. elektrik enerjisindən israfçılıqla və səmərəsiz istifadə etdikdə;~~

~~9.12.4. enerjitəchizatı müəssisəsinin və ya digər istehlakçının elektrik şəbəkəsinə özbaşına elektrikqəbulediciləri qoşduqda, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyənləşdirilmiş göstəricilərdən artıq şəbəkəyə güc qoşduqda;~~

~~9.12.5. elektrikqəbulediciləri sayğacdan kənar elektrik şəbəkəsinə qoşduqda və ya elektrik enerjisi uçotunun sxemini pozduqda;~~

~~9.12.6. elektrik qurğularına xidmət üçün elektrotexniki heyət olmadıqda;~~

~~9.12.7. istehlakçının təqsirindən enerjitəchizatı müəssisəsinin və ya başqa istehlakçıların elektrik qurğularının normal fəaliyyətini pozan göstəricilərə qədər elektrik enerjisinin keyfiyyətini aşağı saldıqda;~~

~~9.12.8. elektrik qurğularındakı pozuntu və çatışmazlıqların aradan qaldırılması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbləri vaxtında yerinə yetirilmədikdə;~~

~~9.12.9. istehlakçının (məişət abonenti istisna olmaqla) elektrik qurğularına və ya elektrik enerjisinin uçot cihazlarına *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələri buraxılmadıqda.~~

9.13. Enerji təchizatı müəssisəsi istehlakçıya elektrik enerjisinin verilməsini aşağıdakı hallarda dayandıra bilər:

9.13.1. istehlakçının müvafiq yazılı müraciəti (elektrik enerjisinin verilməsinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

9.13.2. enerji təchizatı müəssisəsinin istehlakçıya verdiyi elektrik enerjisinin sayğacla müəyyənləşən hesabı istehlakçıya enerji təchizatı müəssisəsi tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra bir ay müddətində tam məbləğdə ödənilmədikdə;

9.13.3. təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;

9.13.4. enerji təchizatı müəssisəsi ilə müvafiq müqavilə bağlanmadıqda;

9.13.5. məhkəmənin qərarı ilə;

*9.13.6. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar aparan orqanların - Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin göstərişləri əsasında.*[58]

İstehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılması *(dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar dayandırma halı istisna olmaqla)* yalnız fərdi qaydada həyata keçirilir. Elektrik enerjisinin dəyərini vaxtında ödəməyən istehlakçıya elektrik enerjisinin verilməsinin dayandırılması, elektrik enerjisinin dəyərini vaxtında ödəyən digər istehlakçıların hüquqlarının pozulması ilə nəticələnməməlidir. [59]

**Qeyd.** Məişət abonenti hesablaşma elektrik sayğacına baxış keçirmək və göstərişini yazmaq üçün enerjitəchizatı müəssisəsinin səlahiyyətli nümayəndələrini buraxmadıqda qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

9.13-1. Elektrik xətlərinin qanunsuz olaraq kəsilməsi və ya istehlakçıya bu Qaydaların 9.13-cü bəndində nəzərdə tutulmuş hallarda (*9.13.3-cü (yalnız qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı hallarda)və 9.13.6-cı yarımbəndlərində* nəzərdə tutulan hallar istisna olmaqla) yazılı bildiriş göndərilmədən elektrik~~və istilik~~ enerjisi verilməsinin dayandırılması qadağandır.[60]

*9.13-2. Elektrik enerjisinin verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və müvafiq qaydada rəsmiləşdirildikdən sonra bir gün müddətində enerji təchizatı müəssisəsi tərəfindən elektrik enerjisinin verilməsi bərpa*

*edilməlidir.* [61]

*9.13-3. Elektrik enerjisinin verilməsinin dayandırılması və bərpa edilməsi hər bir halda (bu Qaydaların 9.13.3-cü (yalnız qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı hallarda) və 9.13.6-cı yarımbəndləri istisna olmaqla) enerji təchizatı müəssisəsi tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir.*

9.14. Ehtiyat qida mənbəyi olmadıqda, plan üzrə təmir işlərinin aparılması və yeni elektrik qurğularının qoşulması üçün istehlakçının elektrik şəbəkəsindən açılmasının sayı və müddəti enerjitəchizatı müəssisəsi ilə istehlakçı arasındakı elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyənləşdirilir. Bu məqsədlər üçün elektrik enerjisi verilişində fasilələrin dəqiq tarixini (sutkanı və saatını) razılaşdırmaq üçün enerjitəchizatı müəssisəsi üç sutka əvvəl istehlakçını nəzərdə tutulmuş açılma haqqında xəbərdar etməlidir.

İstehlakçı xəbərdarlıq aldıqdan sonra bir sutka müddətində elektrik enerjisi verilişində fasilələrin vaxtını razılaşdırmadıqda, enerjitəchizatı müəssisəsi bu vaxtı özü müəyyən edə bilər. Elektrik enerjisinin fasilələri imkan daxilində istehlakçının iş vaxtından kənar vaxtlarda, onu açılmaya qədər 24 saat əvvəl xəbərdar etməklə aparılmalıdır.

9.15. Qəzaların qarşısının alınması və ya ləğv edilməsi üçün təxirəsalınmaz tədbirlərin görülməsi məqsədilə sonradan istehlakçıya açılmanın səbəbləri haqqında məlumat verməklə, enerjitəchizatı müəssisəsi istehlakçının (açılması insan həyatı üçün təhlükə yaradan, partlayışa, yanğına, məhsulun kütləvi zay olmasına, mürəkkəb texnoloji proseslərin pozulmasına və s. səbəb ola bilən elektrik qurğuları istisna olmaqla) elektrik qurğularını elektrik şəbəkəsindən açmaq hüququna malikdir.

9.16. İstehlakçı, müvafiq təlimata uyğun olaraq enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı və ya qəza vəziyyəti ilə əlaqədar tətbiq edilən məhdudiyyət və birbaşa açılma qrafiklərinə əməl etməlidir.

9.17. Büdcədən maliyyələşdirilən istehlakçı tərəfindən elektrik enerjisinin alqı-satqı müqaviləsindəki sərfiyyat göstəricilərindən artıq elektrik enerjisi sərf etdiyi hallarda, enerjitəchizatı müəssisəsi bu Qaydalara uyğun olaraq üç gün əvvəl xəbərdar etməklə ona artıq istifadə edilmiş elektrik enerjisi tam kompensasiya olana qədər məcburi məhdudlaşdırma tətbiq etmək hüququna malikdir.

9.18. Enerjitəchizatı müəssisəsinin yükün azaldılması haqqında verdiyi məhdudiyyət tələblərini istehlakçı şərtsiz və dərhal yerinə yetirməlidir. Enerjitəchizatı müəssisəsinin yükün azaldılması üzrə tələbi on dəqiqə ərzində yerinə yetirilməzsə, enerjitəchizatı müəssisəsi xəbərdar etdikdən sonra istehlakçını şəbəkədən tam və ya qismən aça bilər. Elektrik enerjisi təchizatında fasilələr yolverilməz olan istehlakçıların (insan həyatına, partlayışa, yanğına təhlükə yaranması, məhsulun kütləvi zay olması, mürəkkəb texnoloji proseslərin pozulması və s.) şəbəkədən açılmasına icazə verilmir.

9.19. İstehlakçının təqsirindən baş vermiş qəza nəticəsində enerjitəchizatı müəssisəsinə ziyan dəydikdə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.), istehlakçı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşıyır.

9.20. İstehlakçı aşağıda göstərilən səbəblərlə əlaqədar dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında məsuliyyət daşımır:

9.20.1. fors-major hadisə ilə əlaqədar;

9.20.2. kənar şəxslərin düzgün olmayan hərəkətləri (səhvən birləşdirmə, açma və keçirmə, hava elektrik veriliş xətlərinin naqillərinin üzərinə kənar əşyaların atılması, hava və ya kabel elektrik veriliş xətlərinin mexaniki zədələnməsi və s.) nəticəsində baş vermiş qəzalarla əlaqədar.

9.21. İstehlakçının təqsirindən enerjitəchizatı müəssisəsi ilə elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsi hallarında istehlakçı onun qidalandığı elektrik qurğusuna hesablaşma dövründə buraxılmış elektrik enerjisinin keyfiyyəti aşağı düşmüş hissəsinin dəyərinin 25 faizi miqdarında enerjitəchizatı müəssisəsinə ödəniş ödəyir. Əgər aşağı keyfiyyətli elektrik enerjisinin təsirindən enerjitəchizatı müəssisəsinə ziyan dəymişdirsə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.) istehlakçı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq enerjitəchizatı müəssisə-si qarşısında maddi məsuliyyət daşıyır.

9.22. Elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsinə təqsirkar tərəf və aşağı keyfiyyətli elektrik enerjisi ilə (faizlə ölçmənin müddətinə) işləmə müddəti "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun olaraq, statistik və ya qeydedici cihazların ölçülərinin nəticələri ilə müəyyənləşdirilir. Ölçülərin nəticələri enerjitəchizatı müəssisəsinin, istehlakçının və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin tərtib etdiyi aktla rəsmiləşdirilir.

## 10. ENERJİTƏCHİZATI MÜƏSSİSƏSİNİN MƏSULİYYƏTİ

10.1. Enerjisistemdə və ya enerjitəchizatı müəssisəsinin şəbəkəsində baş vermiş qəza nəticəsində istehlakçıya ziyan dəymişdirsə (elektrikqəbuledicilərin zədələnərək yararsız hala düşməsi, məhsulun zay olması və s.), enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq istehlakçı qarşısında maddi məsuliyyət daşıyır.

10.2. Enerjitəchizatı müəssisəsi aşağıda göstərilən səbəblərlə əlaqədar dəymiş ziyana görə istehlakçı qarşısında maddi məsuliyyət daşımır:

10.2.1. fors-major hadisə ilə əlaqədar;

10.2.2. kənar şəxslərin düzgün olmayan hərəkətləri (səhvən birləşdirmə, açma və keçirmə, hava elektrik veriliş xətlərinin naqillərinin üzərinə kənar əşyaların atılması, hava və ya kabel elektrik veriliş xətlərinin mexaniki zədələnməsi və s.) nəticəsində baş vermiş qəzalarla əlaqədar;

10.2.3. bu Qaydaların ~~9.12,~~ 9.13, 9.15 və 9.16-cı bəndlərində nəzərdə tutulmuş, istehlakçıya elektrik enerjisi verilişinin dayandırılması və məhdudlaşdırılması şərtləri ilə əlaqədar; [62]

10.2.4. bu Qaydaların 9.14-cü bəndinə uyğun olaraq, işlərin yerinə yetirilməsilə əlaqədar.

10.3. İstehlakçı elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən olunmuş müddətdə sərf etdiyi elektrik enerjisinin haqqını ödəmədikdə, enerjitəchizatı müəssisəsi şəbəkəsində və ya enerjisistemdə baş vermiş qəza nəticəsində istehlakçıya dəymiş ziyana görə onun qarşısında maddi məsuliyyət daşımır.

10.4. Enerjitəchizatı müəssisəsi dəymiş ziyan haqqında istehlakçıdan daxil olmuş müraciətə on gündən gec olmayaraq baxır və bu Qaydalara uyğun olaraq istehlakçıya ödəniş ödəyir.

10.5. İstehlakçıya elektrik enerjisinin kəsirlə verilməsi müddəti və onun səbəbləri enerjitəchizatı müəssisəsinin və istehlakçının

əməliyyat sənədləri üzrə müəyyənləşdirilir.

10.6. İstehlakçının təqsirindən baş vermiş qəza nəticəsində enerjitəchizatı müəssisəsinin başqa istehlakçılarına ziyan dəymişdirsə, təqsirkar istehlakçı dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında sonuncunun başqa istehlakçılara ödədiyi ödəniş dəyərində maddi məsuliyyət daşıyır.

10.7. Enerjitəchizatı müəssisəsi balans mənsubiyyəti sərhədində və şəbəkəsində elektrik enerjisinin keyfiyyət göstəricilərini qüvvədə olan standartların tələblərinə uyğun saxlamağa borcludur.

10.8. Enerjitəchizatı müəssisəsi ilə istehlakçı arasındakı balans mənsubiyyəti sərhədində elektrik enerjisinin tələb olunan keyfiyyət göstəriciləri standartlara və "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun müəyyən edilir.

10.9. Enerjitəchizatı müəssisəsi və istehlakçı bu Qaydaların 10.8-ci bəndində qeyd edilən metodik göstərişlərə əsasən, elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyətinə daimi, vaxtaşırı (ildə 2-4 dəfə) və ya epizodik nəzarət etməyə borcludurlar.

10.10. Aşağı tezliklə işləmə müddəti dövlət elektroenergetika müəssisəsinin və enerjitəchizatı müəssisəsinin dispetçer məntəqələrinin qeydiyyat aparan (yaddaşlı) tezlik ölçənləri ilə müəyyənləşdirilir.

Aşağı tezliklə buraxılmış elektrik enerjisinin miqdarı, hesablaşma dövründə orta sutkalıq sərfiyyat üzrə müəyyən edilir.

10.11. Enerjitəchizatı müəssisəsinin təqsirindən istehlakçıya aşağı keyfiyyətli (bir və ya eyni zamanda bir neçə göstərici üzrə) elektrik enerjisi buraxıldıqda, enerjitəchizatı müəssisəsi, buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinin dəyərinin 25 faizi məbləğində istehlakçıya ödəniş ödəyir. Əgər aşağı keyfiyyətli elektrik enerjisinin təsirindən istehlakçıya ziyan dəymişdirsə (elektrikqəbuledicilərin zədələnərək yararsız hala düşməsi, məhsulun zay olması və s.), enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq istehlakçı qarşısında maddi məsuliyyət daşıyır.

10.12. Elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsinə təqsirkar tərəf və aşağı keyfiyyətli elektrik enerjisi ilə (faizlə ölçmənin müddətinə) işləmə müddəti "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun olaraq, statistik və ya qeydedici cihazların ölçülərinin nəticələri ilə müəyyənləşdirilir. Ölçülərin nəticələri enerjitəchizatı müəssisəsinin, *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin*, istehlakçının, yaxud dövlət elektroenergetika müəssisəsinin səlahiyyətli nümayəndələrinin tərtib etdiyi aktla rəsmiləşdirilir.

10.13. İstehlakçı, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddətdə sərf etdiyi elektrik enerjisinin haqqını ödəmədiyi, elektrik enerjisi rejimlərinə, həmçinin reaktiv gücün optimal göstəricilərinə, o cümlədən reaktiv gücün kompensasiya qurğularının iş rejimlərinə əməl etmədiyi, elektrik enerjisi sərfi üzrə müqavilə göstəricisini aşdığı, enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı və ya qəza vəziyyəti ilə əlaqədar tətbiq edilən məhdudiyyət və birbaşa açılma qrafiklərinə əməl etmədiyi hallarda enerjitəchizatı müəssisəsi istehlakçı qarşısında buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə maddi məsuliyyət daşımır.

10.14. İstehlakçının təqsirindən enerjitəchizatı müəssisəsinin başqa istehlakçılanna aşağı keyfiyyətli (bir və ya eyni zamanda bir neçə göstərici üzrə) elektrik enerjisi buraxıldıqda, təqsirkar istehlakçı buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında sonuncunun başqa istehlakçılara ödədiyi ödəniş dəyərində maddi məsuliyyət daşıyır.

10.15. Enerjitəchizatı müəssisəsinin təqsirindən baş vermiş qəza nəticə-sində dövlət elektroenergetika müəssisəsinə ziyan dəymişdirsə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.), enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq dövlət elektroenergetika müəssisəsi qarşısında maddi məsuliyyət daşıyır.

Bu Qaydaların 10.2.1-ci və 10.2.2-ci bəndlərində göstərilən səbəblərlə əlaqədar baş vermiş qəza nəticəsində dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi dövlət elektroenergetika müəssisəsi qarşısında maddi məsuliyyət daşımır.

10.16. Enerjitəchizatı müəssisəsinin təqsirindən dövlət elektroenergetika müəssisəsi ilə elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyətinin (bir və ya eyni zamanda bir neçə göstərici üzrə) aşağı düşməsi nəticəsində dövlət elektroenergetika müəssisəsinə ziyan dəymişdirsə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.), enerjitəchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq dövlət elektroenergetika müəssisəsi qarşısında maddi məsuliyyət daşıyır.

10.17. Enerjitəchizatı müəssisəsi sərəncamındakı elektrik qurğularının texniki vəziyyətinə, təhlükəsizlik texnikası qaydalarına əməl olunmasına və düzgün istismarına, elektrik enerjisindən səmərəli istifadəsinə, elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş göstəricilərin və rejimlərin yerinə yetirilməsinə, satın alınmış elektrik enerjisi haqqının vaxtında ödənilməsinə, elektrik enerjisinin keyfiyyətinin təmin olunmasına və mövcud qaydalara uyğun olaraq operativ intizama riayət edilməsinə, həmçinin *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin tələbnamələrinin vaxtında icra olunmasına görə cavabdehlik daşıyır.

10.18. Elektrik qurğularının etibarlı və təhlükəsiz istismarını və elektrik enerjisindən qənaətlə istifadə olunmasını təmin etmək üçün enerjitəchizatı müəssisəsi aşağıdakıları yerinə yetirməyə borcludur:

10.18.1. öz idarəetmə ərazisində elektrik şəbəkəsinin təhlükəsiz, etibarlı və səmərəli işləməsini təmin edən yerli dispetçer xidmətini təşkil etməyə;

10.18.2. ona məxsus olan elektrik qurğularının və mühafizə vasitələrinin texniki vəziyyətini yoxlamağa, profilaktik sınaqlar keçirməyə və təmir etməyə, həmçinin mövcud qaydalarla və normalarla müəyyən edilmiş həcmlərdə və müddətlərdə paylayıcı qurğuları, transformatorları və onların yerləşdiyi tikililəri təmir etməyə;

10.18.3. qəza zamanı enerjisistemdə yük çıxarıldıqda, məsul yükləri ayıraraq ehtiyatlandırılmış xarici təchizat elektrik xətlərinə qoşmaqla texnoloji və qəza bronlarının tələbatını təmin etmək üçün elektrik təchizatı sxemini təkmilləşdirməyə;

10.18.4. enerjitəchizatı müəssisəsinin balansında olan, ancaq hesabat hədləri (ustavka) dövlət elektroenergetika müəssisəsi tərəfindən verilən rele mühafizələrinin, bütün növ avtomatikaların, o cümlədən enerjisistem əhəmiyyətli avtomatikaların iş rejimlərinə nəzarət etməyə, onlarda müəyyən olunmuş müddətlərdə sazlama və profilaktik sınaq işlərini aparmağa;

10.18.5. dövlət elektroenergetika müəssisəsinin və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbinə əsasən enerjitəchizatı müəssisəsinin elektrik qurğularının işi ilə müəyyənləşdirilən elektrik enerjisinin keyfiyyətinə fasiləsiz, vaxtaşırı və epizodik nəzarət etməyə, şəbəkələrində elektrik enerjisinin keyfiyyətinin yaxşılaşdırılması üzrə tədbirləri həyata keçirməyə;

10.18.6. "Elektrik qurğularının quraşdırılması qaydaları"nın tələblərinə uyğun olaraq elektrik enerjisinə görə hesablaşma uçotunu təşkil etməyə;

10.18.7. elektrik qurğularına xidmət üçün tələb olunan ixtisaslı elektrotexniki heyətlə təmin etməyə, elektrik qurğularına xidmət edən heyəti öyrətməyə, təlimatlandırmağa və onları avadanlıqlaşdırılmış iş yeri ilə, mühafizə vasitələrilə, alətlərlə, lazımi materiallarla və təlimatlarla təmin etməyə;

10.18.8. qəzaya və yanğına qarşı təhlükəsizlik texnikası üzrə tədbirləri həyata keçirməyə;

10.18.9. elektrik enerjisi rejimlərinə, elektrik enerjisinin səmərəli və qənaətlə istifadəsinə, elektrik qurğularının texniki istismar qaydalarının, təhlükəsizlik texnikası qaydalarının, təlimatların və digər normativ sənədlərin tələblərinə əməl olunmasına və səlahiyyəti daxilində digər məsələlərə nəzarət etmək üçün *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin (onların xidməti vəsiqələri, nəzarətin həyata keçirilməsi haqqında qərarın surəti və nəzarətin Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı əsasında) günün istənilən vaxtı maneəsiz elektrik qurğularına buraxılmasını təmin etməyə;[63]

*10.18.9-1. Elektrik şəbəkəsinə qanunsuz qoşulmaqla, elektrik enerjisinin talanması hallarının qarşısının alınması məqsədilə on iki ayda bir dəfədən az olmayaraq, paylayıcı qurğulara baxış keçirməyə;*[64]

*10.18.9-2. bu Qaydaların 7.18-ci və 7.19-cu bəndləri nəzərə alınmaqla istehlakçıların (o cümlədən məişət abonentinin) elektrik sayğaclarının və sayğacların qoşulma sxeminin işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə üç ayda bir dəfədən az olmayaraq onlara baxış keçirməyə;*

10.18.10. elektrik enerjisinin paylanmasında, satılmasında, elektrik enerjisindən səmərəli istifadə olunmasında, elektrik qurğularının layihələndirilməsində, tikintisində, yenidən qurulmasında, təmirində, həmçinin onların istismarında texniki istismar qaydalarının, təhlükəsizlik texnikası qaydalarının, elektrik qurğularının quraşdırılması qaydalarının və digər normativ sənədlərin tələblərinə əməl olunmasında aşkar edilmiş pozuntu və çatışmazlıqların aradan qaldırılması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* ~~səlahiyyətli nümayəndələrinin~~ tələbnamələrini müəyyən olunmuş müddətlərdə yerinə yetirməyə.[65]

10.19. Enerjitəchizatı müəssisəsi dövlət elektroenergetika müəssisəsinə onlar arasındakı hesablaşma uçot cihazlarındakı və uçot sxemindəki pozuntular, həmçinin tikililərində və ya ərazisində yerləşən dövlət elektroenergetika müəssisəsinə məxsus elektrik qurğularındakı nasazlıqlar haqqında məlumat verməyə borcludur.

10.20. Enerjitəchizatı müəssisəsi qidalandırıcı xətlərin açılması, elektrik qurğularının və avadanlığın zədələnməsi ilə əlaqədar baş vermiş qəzalar, yanğınlar, həmçinin elektrik cərəyanının təsirindən insanların xəsarət alması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* məlumat verməyə borcludur.

10.21. Enerjitəchizatı müəssisəsi "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na və "Gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na əsasən ona məxsus elektrik qurğularının qorunmasını, onlara sərbəst keçməyi və yanaşmağı təmin etməli, kabel və hava elektrik verilişi xətlərinin mühafizə zonalarında hər hansı bir obyektin tikintisinə, materialların yığılmasına, kabel və hava xətləri mənsub olan təşkilatın icazəsi olmadan torpaq və tikinti işlərinin aparılmasına yol verməməlidir.

10.22. Enerjitəchizatı müəssisəsi ərazisindəki yarımstansiyaların tranzit hissəsində dövlət elektroenergetika müəssisəsinə aid şəbəkədə operativ əməliyyatlar, tikinti və təmir işləri aparmaq üçün dövlət elektroenergetika müəssisəsinin elektrotexniki heyətinin bu qurğulara buraxılmasını təmin etməyə borcludur. İşlər başa çatdıqda dövlət elektroenergetika müəssisəsi öz hesabına işlər aparılmış əraziləri və tikililəri lazımi vəziyyətə gətirməyə borcludur.

10.23. Enerjitəchizatı müəssisəsinin yerli dispetçer xidməti operativ idarəçilik iyerarxiyasına görə özündən yuxarı pillədə yerləşən dövlət elektroenergetika müəssisəsinin dispetçer xidmətinə tabedir və onların fəaliyyəti xüsusi təlimatla nizamlanır.

10.24. Enerjitəchizatı müəssisəsi aşağıdakı məlumat və hesabatları təqdim etməyə borcludur:

10.24.1. hesabat vermə qaydalarına uyğun olaraq, təsdiq olunmuş formalarla müəyyən edilmiş müddətlərdə elektrik enerjisinin sərfi, texniki itki (texnoloji sərfiyyat) tapşırıqlarının yerinə yetirilməsi və başqa göstəricilər haqqında dövlət elektroenergetika müəssisəsinə və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* hesabat verməyə;

10.24.2. ildə iki dəfədən az olmayaraq, xarakterik yay və qış iş günlərində, aktiv və reaktiv elektrik enerjisinin yük qrafiklərini dövlət elektroenergetika müəssisəsinə və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* təqdim etməyə;

10.24.3. dövlət elektroenergetika müəssisəsinə və müstəqil enerji istehsalçısına gələn il üçün satın alınacaq elektrik enerjisi üzrə sifarişlər verməyə.

10.25. Enerjitəchizatı müəssisəsi enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı və ya qəza vəziyyətilə əlaqədar tətbiq edilən məhdudiyyət və birbaşa açılma qrafiklərinə uyğun olaraq dövlət elektroenergetika müəssisəsinin yükün azaldılması və elektrik enerjisinin məhdudlaşdırılması haqqında tələblərini yerinə yetirməyə borcludur.

10.26. Enerjitəchizatı müəssisəsi dövlət elektroenergetika müəssisəsindən və müstəqil enerji istehsalçısından satın aldığı elektrik enerjisinin haqqının elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyənləşdirilmiş müddətdə və həcmdə müəyyən olunmuş tarif qiymətinə uyğun ödənilməsini təmin etməlidir.

## 11. DÖVLƏT ELEKTROENERGETİKA MÜƏSSİSƏSİNİN MƏSULİYYƏTİ

11.1. Dövlət elektroenergetika müəssisəsinin təqsirindən baş vermiş qəza nəticəsində enerjitəchizatı müəssisəsinə ziyan dəymişdirsə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.), dövlət elektroenergetika müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəllə-sinə uyğun olaraq enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşıyır.

11.2. Dövlət elektroenergetika müəssisəsi aşağıda göstərilən səbəblərlə əlaqədar baş vermiş qəza nəticəsində dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşımır:

11.2.1. fors-major hadisə ilə əlaqədar;

11.2.2. kənar şəxslərin düzgün olmayan hərəkətləri (səhvən birləşdirmə, açma və keçirmə, hava elektrik veriliş xətlərinin naqillərinin üzərinə kənar əşyaların atılması, hava və ya kabel elektrik veriliş xətlərinin mexaniki zədələnməsi və s.) nəticəsində baş vermiş qəzalarla əlaqədar;

11.2.3. enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı və ya qəza vəziyyəti nəticəsində tətbiq edilən məhdudiyyət və birbaşa açılmalarla əlaqədar;

11.2.4. enerjitəchizatı müəssisəsini əvvəlcədən xəbərdar etməklə dövlət elektroenergetika müəssisəsi tərəfindən elektrik və ya istilik qurğularında təmir işlərinin aparılması ilə əlaqədar.

11.3. Enerjitəchizatı müəssisəsi aldığı elektrik enerjisinin haqqını elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən olunmuş müddətdə və həcmdə ödəmədikdə, dövlət elektroenergetika müəssisəsi onun təqsirindən baş vermiş qəza nəticəsində dəymiş ziyana görə enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşımır.

11.4. Enerjitəchizatı müəssisəsinin təqsirindən baş vermiş qəza nəticə-sində dövlət elektroenergetika müəssisəsinin başqa enerjitəchizatı müəssisələrinə ziyan dəymişdirsə, təqsirkar enerjitəchizatı müəssisəsi dəymiş ziyana görə dövlət elektroenergetika müəssisəsi qarşısında sonuncunun başqa enerjitəchizatı müəssisələrinə ödədiyi ödəniş dəyərində maddi məsuliyyət daşıyır.

11.5. Dövlət elektroenergetika müəssisəsi elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədində və şəbəkəsində elektrik enerjisinin keyfiyyət göstəricilərini standartların tələblərinə uyğun saxlamağa borcludur.

11.6. Dövlət elektroenergetika müəssisəsilə enerjitəchizatı müəssisəsi arasındakı balans mənsubiyyəti sərhədində elektrik enerjisinin tələb olunan keyfiyyət göstəriciləri standartlara və "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun müəyyən edilir.

11.7. Dövlət elektroenergetika müəssisəsi və enerjitəchizatı müəssisəsi bu Qaydaların 11.6-cı bəndində qeyd edilən metodik göstərişlərə əsasən, elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində elektrik enerjisinin keyfiyyətinə daimi, vaxtaşırı (ildə 2-4 dəfə) və ya epizodik nəzarət etməyə borcludurlar.

11.8. Aşağı tezliklə işləmə müddəti elektrik stansiyalarının və ya mərkəzi dispetçer xidmətinin məntəqələrindəki qeydiyyat aparan (yaddaşlı) tezlik ölçənlər ilə müəyyənləşdirilir.

Aşağı tezliklə buraxılmış elektrik enerjisinin miqdarı, hesablaşma dövründə orta sutkalıq sərfiyyat üzrə müəyyən edilir.

11.9. Dövlət elektroenergetika müəssisəsinin təqsirindən enerjitəchizatı müəssisəsinə aşağı keyfiyyətli (bir və ya eyni zamanda bir neçə göstərici üzrə) elektrik enerjisi buraxılması nəticəsində enerjitəchizatı müəssisəsinə ziyan dəymişdirsə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.), dövlət elektroenergetika müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşıyır.

11.10. Elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsinə təqsirkar tərəf və aşağı keyfiyyətli elektrik enerjisilə (faizlə ölçmənin müddətinə) işləmə müddəti "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun olaraq, statistik və ya qeydedici cihazların ölçülərinin nəticələri ilə müəyyənləşdirilir. Ölçülərin nəticələri dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisəsinin və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin tərtib etdiyi aktla rəsmiləşdirilir.

11.11. Enerjitəchizatı müəssisəsi elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddətdə və həcmdə elektrik enerjisinin haqqını ödəmədiyi, elektrik enerjisi rejimlərinə, həmçinin reaktiv gücün optimal göstəricisinə, o cümlədən reaktiv gücün kompensasiya qurğularının iş rejimlərinə əməl etmədiyi, elektrik enerjisinin müqavilə göstəricisini aşdığı, enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı və ya qəza vəziyyəti ilə əlaqədar tətbiq edilən məhdudiyyət və birbaşa açılma qrafiklərini yerinə yetirmədiyi hallarda dövlət elektroenergetika müəssisəsi enerjitəchizatı müəssisəsi qarşısında buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə maddi məsuliyyət daşımır.

11.12. Enerjitəchizatı müəssisəsinin təqsirindən dövlət elektroenergetika müəssisəsindən qidalanan başqa enerjitəchizatı müəssisələrinə aşağı keyfiyyətli elektrik enerjisi buraxıldıqda (bir və ya eyni zamanda bir neçə göstərici üzrə), təqsirkar enerjitəchizatı müəssisəsi buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə dövlət elektroenergetika müəssisəsi qarşısında sonuncunun başqa enerjitəchizatı müəssisələrinə ödədiyi ödəniş dəyərində maddi məsuliyyət daşıyır.

11.13. Dövlət elektroenergetika müəssisəsi sərəncamındakı elektrik qurğularının texniki vəziyyətinə, təhlükəsizlik texnikası qaydalarına əməl olunmasına və düzgün istismarına, enerjiresurslarından səmərəli istifadəsinə, elektrik enerjisinin keyfiyyətinin təmin olunmasına və mövcud qaydalara uyğun olaraq operativ intizama riayət edilməsinə, həmçinin *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbnamələrinin vaxtında icra olunmasına görə cavabdehlik daşıyır.

11.14. Elektrik qurğularının etibarlı və təhlükəsiz istismarını və enerjiresurslardan qənaətlə istifadə olunmasını təmin etmək üçün dövlət elektroenergetika müəssisəsi aşağıdakıları yerinə yetirməyə borcludur:

11.14.1. tərkibindəki mərkəzi dispetçer xidməti vasitəsilə dövlət elektroenergetika müəssisəsinə operativ (əməli) cəhətdən tabe olan elektrik stansiyalarının və yüksək gərginlikli elektrik şəbəkələrinin iş rejimini, avadanlıqların təmirə saxlanılmasını və başqa dövlətlərin elektroenergetika müəssisələrilə paralel işləməsini təmin etməyə;

11.14.2. ona məxsus olan elektrik qurğularının və mühafizə vasitələrinin texniki vəziyyətini yoxlamağa, profilaktik sınaqlar keçirməyə və təmir etməyə, həmçinin mövcud qaydalarla və normalarla müəyyən edilmiş həcmlərdə və müddətlərdə paylayıcı qurğuları, transformatorları və onların yerləşdiyi tikililəri təmir etməyə;

11.14.3. enerjisistemin dayanıqlı işini təmin etməyə;

11.14.4. rele mühafizələrinə və avtomatikaya qoyulmuş hədlərə (ustavka) riayət etməyə, onlarda müəyyən olunmuş müddətlərdə sazlama və profilaktik sınaq işlərini aparmağa;

11.14.5. *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* və ya enerjitəchizatı müəssisəsinin müraciətinə əsasən dövlət elektroenergetika müəssisəsinin elektrik qurğularının iş ilə müəyyənləşdirilən elektrik enerjisinin keyfiyyətinə fasiləsiz, vaxtaşırı və epizodik nəzarət etməyə, şəbəkələrində elektrik enerjisinin keyfiyyətinin yaxşılaşdırılması üzrə tədbirləri həyata keçirməyə;

11.14.6. "Elektrik qurğularının quraşdırılması qaydaları"nın tələblərinə uyğun olaraq, elektrik enerjisinə görə hesablaşma uçotunu təşkil etməyə;

11.14.7. elektrik qurğularına xidmət üçün tələb olunan ixtisaslı elektrotexniki heyətlə təmin etməyə, elektrik qurğularına xidmət edən heyəti öyrətməyə, təlimatlandırmağa və onları avadanlıqlaşdırılmış iş yeri ilə, mühafizə vasitələrilə, alətlərlə, lazımi materiallarla və təlimatlarla təmin etməyə;

11.14.8. qəzaya və yanğına qarşı təhlükəsizlik texnikası üzrə tədbirləri həyata keçirməyə;

11.14.9. enerjiresurslarından səmərəli və qənaətlə istifadəyə, elektrik qurğularının texniki istismar qaydalannın, təhlükəsizlik texnikası qaydalarının, təlimatların, digər normativ sənədlərin tələblərinə əməl olunmasına və səlahiyyəti daxilində digər məsələlərə nəzarət etmək üçün *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin (onların xidməti vəsiqələri, nəzarətin həyata keçirilməsi haqqında qərarın surəti və nəzarətin Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı əsasında) günün istənilən vaxtı maneəsiz elektrik qurğularına buraxılmasını təmin etməyə;

11.14.10. elektrik enerjisinin *istehsalında, saxlanılmasında, ötürülməsində, paylanmasında, satışında, istehlakında və enerji effektivliyi sahəsində*, elektrik qurğularının layihələndirilməsində, tikintisində, yenidən qurulmasında, təmirində, həmçinin onların istismarında texniki istismar qaydalarının, təhlükəsizlik texnikası qaydalarının, elektrik qurğularının quraşdırılması qaydalarmın və digər normativ sənədlərin tələblərinə əməl olunmasında aşkar edilmiş pozuntu və çatışmazlıqların aradan qaldırılması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* ~~səlahiyyətli nümayəndələrinin~~ tələbnamələrini müəyyən olunmuş müddətlərdə yerinə yetirməyə.[66]

11.15. Dövlət elektroenergetika müəssisəsi tabeliyində olan elektrik stansiyalarında, yüksək gərginlikli elektrik şəbəkələrində baş verən qəza və yanğın, həmçinin elektrik cərəyanının təsirindən insanların xəsarət alması haqqında Azərbaycan Respublikasının Energetika *Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* və müvafiq dövlət orqanlarına məlumat verməyə borcludur.[67]

Dövlət elektroenergetika müəssisəsi enerjitəchizatı müəssisəsinə onlar arasındakı hesablaşma uçot cihazındakı və ya uçot sxemindəki pozuntular, həmçinin tikililərində və ya ərazisində yerləşən enerjitəchizatı müəssisəsinə məxsus elektrik qurğularındakı nasazlıqlar haqqında məlumat verməyə borcludur.

11.16. Dövlət elektroenergetika müəssisəsi "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na və "Gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na əsasən ona məxsus elektrik qurğularının qorunmasını, onlara sərbəst keçməyi və yanaşmağı təmin etməli, kabel və hava elektrik verilişi xətlərinin mühafizə zonalarında hər hansı bir obyektin tikintisinə, materialların yığılmasına, kabel və hava elektrik verilişi xətləri mənsub olan təşkilatın icazəsi olmadan torpaq və tikinti işlərinin aparılmasına yol verməməlidir.

11.17. Dövlət elektroenergetika müəssisəsinin ərazisindəki yarımstansiyaların tranzit hissəsində enerjitəchizatı müəssisəsinə aid şəbəkədə operativ əməliyyatlar, tikinti və təmir işləri aparmaq üçün enerjitəchizatı müəssisəsinə aid şəbəkədə operativ əməliyyatlar, tikinti və təmir işləri aparmaq üçün enerjitəchizatı müəssisəsinin elektrotexniki heyətinin bu qurğulara buraxılmasını təmin etməyə borcludur. İşlər başa çatdıqda enerjitəchizatı müəssisəsi öz hesabına işlər aparılmış əraziləri və tikililəri lazımi vəziyyətə gətirməyə borcludur.

11.18. Dövlət elektroenergetika müəssisəsinin mərkəzi dispetçer xidməti enerjisistemin sabit işləməsinə, enerji təchizatına təhlükə yaradan qəza vəziyyətlərinin qarşısının alınmasına və aradan qaldırılmasına məsuliyyət daşıyır.

Enerjitəchizatı müəssisəsinin yerli dispetçer xidməti operativ idarəçilik iyerarxiyasına görə özündən yuxarı pillədə yerləşən dövlət elektroenergetika müəssisəsinin dispetçer xidmətinə tabedir və onların fəaliyyəti xüsusi təlimatla nizamlanır.

11.19. Dövlət elektroenergetika müəssisəsi hesabat vermə qaydaları haqqındakı mövcud əsasnamələrə uyğun olaraq, təsdiq olunmuş formalarla, müəyyən edilmiş müddətlərdə enerjiresurslarından istifadə normalarına, texniki itkilər (texnoloji sərfiyyat) tapşırıqlarına əməl olunması, elektrik enerjisinin hasilatı, ötürülməsi və başqa göstəricilər haqqında Azərbaycan Respublikasının Energetika Nazirliyinə hesabat verməyə borcludur.

11.20. Enerjitəchizatı müəssisəsinə elektrik enerjisinin verilişi və fasilələr tərəflər arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsinə əsasən həyata keçirilir.

Elektrik enerjisi istehlakının məhdudlaşdınlması, həmçinin enerjitəchizatı müəssisəsinin yük qrafikinin tənzimlənməsi üzrə tədbirlər müvafiq təlimata uyğun həyata keçirilir.

## 12. MÜSTƏQİL ENERJİ İSTEHSALÇILARI İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏR

12.1. Müstəqil enerji istehsalçısına illik, rüblük və aylıq elektrik enerjisi istehsalı *və saxlanılması* üzrə sifariş, həmçinin sutkalıq yük qrafiklərinin əsas para-metrləri Azərbaycan Respublikasının Energetika Nazirliyi və İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi tərəfindən təsdiq olunur. [68]

Dövlət elektroenergetika müəssisəsinin və (və ya) enerjitəchizatı müəssisəsinin şəbəkəsinə qoşulmuş müstəqil enerji istehsalçısının yerli dispetçer xidməti operativ idarəçilik iyerarxiyasına görə özündən yuxarı pillədə yerləşən dövlət elektroenergetika müəssisəsinin və (və ya) enerjitəchizatı müəssisəsinin dispetçer xidmətinə tabedir, onların fəaliyyəti xüsusi təlimatla nizamlanır.

Dövlət elektroenergetika müəssisəsinə elektrik enerjisi buraxıldıqda, müstəqil enerji istehsalçısı və dövlət elektroenergetika müəssisəsi tərəfindən elektrik enerjisi istehsalı üzrə aylıq sifarişə əməl olunmalı və onun nəticələri barədə Azərbaycan Respublikasının Energetika Nazirliyinə və İqtisadi İnkişaf Nazirliyinə Əmlak Məsələləri Dövlət Komitəsinə rəsmi məlumat verilməlidir.[69]

Enerjitəchizatı müəssisəsinə elektrik enerjisi buraxıldıqda, elektrik enerjisi istehsalı *və saxlanılması* üzrə aylıq sifarişə müstəqil enerji istehsalçısı və enerjitəchizatı müəssisəsi tərəfindən əməl olunmalı və onun nəticələri barədə Azərbaycan Respublikasının Energetika Nazirliyinə və İqtisadi İnkişaf Nazirliyinə Əmlak Məsələləri Dövlət Komitəsinə rəsmi məlumat verilməlidir.

Müstəqil enerji istehsalçısından dövlət elektroenergetika müəssisəsinin və (və ya) enerjitəchizatı müəssisəsinin şəbəkəsinə elektrik enerjisinin verilişi təsdiq olunmuş sifarişə uyğun aparılır.

12.2. Elektrik enerjisi istehsalı *və saxlanılması* üzrə aylıq sifarişə əsasən dövlət elektroenergetika müəssisəsinin və (və ya) enerjitəchizatı müəssisəsinin dispetçer xidməti bu Qaydaların 12.1-ci bəndinə uyğun olaraq təsdiq edilmiş sutkalıq yük qrafiklərinin əsas parametrlərini nəzərə almaqla müstəqil enerji istehsalçısına elektrik enerjisinin sutkalıq yük qrafikini verir.[70]

12.2.3. Müstəqil enerji istehsalçısı tərəfindən dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin şəbəkəsinə verilən aktiv və reaktiv. elektrik enerjisinin hesablanması balans mənsubiyyəti sər-hədində quraşdırılmış hesablaşma elektrik sayğacları vasitəsi ilə yerinə yetirilir. Hesablaşma elektrik sayğaclarının işi pozulduqda elektrik enerjisinə görə hesablaşma elektrik enerjisinin sutkalıq yük qrafikinə uyğun aparılır.

Hesablaşma elektrik sayğaclarının işçi vəziyyətdə saxlanılmasına və qorunmasına görə məsuliyyət onların quraşdırıldığı elektrik qurğusunun mülkiyyətçisinin üzərinə düşür.

12.4. Müstəqil enerji istehsalçısı tərəfindən dövlət elektroenergetika müəssisəsinin və (və ya) enerjitəchizatı müəssisəsinin şəbəkəsinə elektrik enerjisinin verilməsi müvafiq olaraq, onunla dövlət elektroenergetika müəssisəsi və (və ya) enerjitəchizatı müəssisəsi arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsinə əsasən aparılır.

12.5. Müstəqil enerji istehsalçısından dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin şəbəkəsinə verilən elektrik enerjisinin tarif qiyməti mövcud qanunvericiliyə əsasən müvafiq dövlət orqanı tərəfindən təsdiq edilir.

12.6. Müstəqil enerji istehsalçısından dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin şəbəkəsinə verilən elektrik enerjisinə görə hesablaşma dövrü bir ay qəbul olunur.

Dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi hesablaşma dövründə aldığı elektrik enerjisinin haqqını, müstəqil enerji istehsalçısına onlar arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddət ərzində ödəməlidir.

Hər hansı bir səbəbdən, o cümlədən hesabında vəsait olmadığından dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi təqdim edilmiş elektrik enerjisinə görə ödəniş sənədi üzrə ödənişi elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddət ərzində müstəqil enerji istehsalçısının hesabına köçürmədikdə, hər bir gün üçün ödəniş aparılan günədək ödəmə sənədindəki məbləğin 0,01 faizi miqdarında dəbbə (penya) verilməlidir.

Ödəmə sənədində səhv və ya sayğacların göstərişlərində anlaşılmazlıq aşkar olunarsa, dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi bu barədə müstəqil enerji istehsalçısına yazılı məlumat verməlidir. Dövlət elektroenergetika

müəssisəsi, yaxud enerjitəchizatı müəssisə-si yazılı məlumat verdikdən sonra müstəqil enerji istehsalçısı on gündən gec olmayaraq hesablaşmanı və lazım gələrsə sayğacı yoxlamalı, bu yoxlamanın nəticələri haqqında müvafiq olaraq dövlət elektroenergetika müəssisəsinə və ya enerjitəchizatı müəssisəsinə məlumat verməlidir. Sayğacın yoxlanılması və ya ödəmə sənədindəki səhv haqqında dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin məlumat verməsi, onu təqdim olunan ödəmə sənədi üzrə müəyyən olunmuş müddətdə ödənişdən azad etmir. Elektrik enerjisinin uçotunda səhv aşkar edildikdə, müstəqil enerji istehsalçısı Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddətindən kənara çıxmamaq şərtilə elektrik sayğaclarının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanılması müddətindən sonrakı dövr üçün yenidən hesablaşma aparmalıdır. Əgər sayğac göstəricilərinin xətası *Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* müəyyən etdiyi normalardan artıq deyilsə, onda bu xəta normal sayılır və yenidən hesablaşma aparılması tələb olunmur. Əgər yoxlamanın nəticələrinə görə yenidən hesablaşma aparmaq tələb olunarsa, onda növbəti dövr üçün ödəniş sənədləri yazıldıqda yenidən hesablaşma aparılır.

12.7. Müstəqil enerji istehsalçısının təqsirindən dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin şəbəkəsinə elektrik enerjisinin kəsirlə verildiyi hallarda müstəqil enerji istehsalçısı buraxılmamış elektrik enerjisinin ikiqat tarifi dəyərində müvafiq olaraq dövlət elektroenergetika müəssisəsinə və ya enerjitəchizatı müəssisəsinə ödəniş ödəyir. Əgər müstəqil enerji istehsalçısının təqsirindən baş vermiş qəza nəticəsində dövlət elektroenergetika müəssisəsinə, yaxud enerjitəchizatı müəssisəsinə ziyan dəymişdirsə (elektrik qurğularının, avadanlıqların zədələnərək yararsız hala düşməsi və s.), bu halda müstəqil enerji istehsalçısı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq dövlət elektroenergetika müəssisəsi və ya enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşıyır.

12.8. Müstəqil enerji istehsalçısının təqsirindən dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin şəbəkəsinə buraxılmamış elektrik enerjisinin miqdarı aylıq sifarişlə və bu müddətdə şəbəkəyə buraxılmış faktiki elektrik enerjisinin fərqi ilə müəyyən edilir.

12.9. Dövlət elektroenergetika müəssisəsinin və ya enerjitəchizatı müəssisəsinin təqsirindən müstəqil enerji istehsalçısından şəbəkəyə veriləcək elektrik enerjisinin təsdiq olunmuş aylıq sifarişi miqdarında elektrik enerjisi almaqdan imtina edildikdə, təqsirkar tərəf müstəqil enerji istehsalçısına istifadə olunmayan elektrik enerjisinin ikiqat tarifi dəyərində ödəniş ödəyir. İstifadəsindən imtina edilmiş elektrik enerjisinin miqdarı aylıq sifarişlə və bu müddətdə şəbəkəyə buraxılmış faktiki elektrik enerjisinin fərqi ilə müəyyən edilir. Əgər dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin təqsirindən baş vermiş qəza nəticəsində müstəqil enerji istehsalçısına ziyan dəymişdirsə (elektrik qurğularının və avadanlığın zədələnərək yararsız hala düşməsi və s.), bu halda təqsirkar tərəf Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müstəqil enerji istehsalçısı qarşısında maddi məsuliyyət daşıyır.

Bu Qaydaların 12.10.1-ci və 12.10.2-ci bəndlərində göstərilən səbəblərlə əlaqədar istifadəsindən imtina edilmiş və dəymiş ziyana görə dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi müstəqil enerji istehsalçısı qarşısında maddi məsuliyyət daşımır.

12.10. Müstəqil enerji istehsalçısı aşağıda göstərilən səbəblərlə əlaqədar buraxılmamış elektrik enerjisinə və dəymiş ziyana görə dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi qarşısında maddi məsuliyyət daşımır:

12.10.1. fors-major hadisə ilə əlaqədar;

12.10.2. kənar şəxslərin düzgün olmayan hərəkətləri (səhvən birləşdirmə, açma və keçirmə, hava elektrik veriliş xətlərinin naqillərinin üzərinə kənar əşyaların atılması, hava və ya kabel elektrik veriliş xətlərinin mexaniki zədələnməsi və s.) nəticəsində baş vermiş qəzalarla əlaqədar;

12.10.3. dövlət elektroenergetika müəssisəsini, enerjitəchizatı müəssisəsini əvvəlcədən xəbərdar etməklə müstəqil enerji istehsalçısı tərəfindən elektrik və istilik qurğularında təmir işlərinin aparılması ilə əlaqədar.

12.11. Elektrik enerjisinin keyfiyyət göstəricilərinə görə dövlət elektroenergetika müəssisəsinin (enerjitəchizatı müəssisəsinin) və müstəqil enerji istehsalçısının məsuliyyəti mövcud qanunvericiliyə uyğun tərtib edilmiş tərəflər arasında bağlanmış elektrik enerjisinin alqı-satqı müqaviləsi ilə tənzimlənir.

12.12. Elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsinə təqsirkar tərəf və aşağı keyfiyyətli elektrik enerjisilə (faizlə ölçmənin müddətinə) işləmə müddəti "Ümumi təyinatlı elektrik şəbəkələrində elektrik enerjisinin keyfiyyətinə nəzarət və təhlili üzrə metodik göstərişlər"ə uyğun olaraq, statistik və ya qeydedici cihazların ölçülərinin nəticələri ilə müəyyənləşdirilir. Ölçülərin nəticələri müstəqil enerji istehsalçısının, müvafiq olaraq dövlət elektroenergetika müəssisəsinin, yaxud enerjitəchizatı müəssisəsinin və *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin tərtib etdiyi aktla rəsmiləşdirilir.

12.13. Dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi elektrik enerjisinin alqı-satqı müqaviləsində müəyyən edilmiş müddətdə elektrik enerjisinin haqqını ödəmədiyi, elektrik enerjisinin müqavilə göstəricisini aşdığı hallarda müstəqil enerji istehsalçısı dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi qarşısında buraxılmış aşağı keyfiyyətli elektrik enerjisinə və ya bununla əlaqədar dəymiş ziyana görə maddi məsuliyyət daşımır.

12.14. Müstəqil enerji istehsalçısı aylıq elektrik enerjisi sifarişinə, sutkalıq yük qrafikinə, həmçinin bu dövrdə reaktiv gücün optimal göstəricisinə əməl etmədiyi hallarda, dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi müstəqil enerji istehsalçısı qarşısında elektrik enerjisinin keyfiyyətinin aşağı düşməsinə və ya bununla əlaqədar dəymiş ziyana görə maddi məsuliyyət daşımır.

12.15. Elektrik qurğularının etibarlı və təhlükəsiz istismarını və enerjiresurslarından qənaətlə istifadə olunmasını təmin etmək üçün müstəqil enerji istehsalçısı aşağıdakıları yerinə yetirməyə borcludur:

12.15.1. öz idarəetmə ərazisində elektrik və istilik şəbəkəsinin təhlükəsiz, etibarlı və səmərəli işləməsini təmin edən yerli dispetçer xidmətini təşkil etməyə;

12.15.2. ona məxsus olan elektrik qurğularının və mühafizə vasitələrinin texniki vəziyyətini yoxlamağa, profilaktik sınaqlar keçirməyə və təmir etməyə, həmçinin mövcud qaydalarla və normalarla müəyyən edilmiş

12.15.3. həcmlərdə və müddətlərdə paylayıcı qurğuları, transformatorları və onların yerləşdiyi tikililəri təmir etməyə;

12.15.4. dövlət elektroenergetika müəssisəsi və ya enerjitəchizatı müəssisəsi tərəfindən rele mühafizələrinə, həmçinin avtomatikaya qoyulmuş hədlərə (ustavka) əməl etməyə, müəyyən olunmuş müddətlərdə sazlama və profilaktik sınaq işlərini aparmağa;

12.15.5. dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisəsinin və*Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbinə əsasən müstəqil enerji istehsalçısının elektrik qurğularının işi ilə müəyyənləşdirilən elektrik enerjisinin keyfiyyətinə fasiləsiz, vaxtaşırı və epizodik nəzarət etməyə, şəbəkəsində elektrik enerjisinin keyfiyyətinin yaxşılaşdırılması üzrə tədbirləri həyata keçirməyə;

12.15.6. "Elektrik qurğularının quraşdırılması qaydaları"nın tələblərinə uyğun olaraq, elektrik enerjisinə görə hesablaşma uçotunu təşkil etməyə;

elektrik qurğularına xidmət üçün tələb olunan ixtisaslı elektrotexniki heyətlə təmin etməyə, elektrik qurğularına xidmət edən heyəti öyrətməyə, təlimatlandırmağa və onları avadanlıqlaşdırılmış iş yeri ilə, mühafizə vasitələrilə, alətlərlə, lazımi materiallarla və təlimatlarla təmin etməyə;

12.15.7. qəzaya və yanğına qarşı təhlükəsizlik texnikası üzrə tədbirləri həyata keçirməyə;

12.15.8. enerjiresurslardan səmərəli və qənaətlə istifadəsinə, elektrik qurğularının texniki istismar qaydalarının, təhlükəsizlik texnikası qaydalarının, təlimatların digər normativ sənədlərin tələblərinə əməl olunmasına və səlahiyyəti daxilində digər məsələlərə nəzarət etmək üçün *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* səlahiyyətli nümayəndələrinin (onların xidməti vəsiqələri, nəzarətin həyata keçirilməsi haqqında qərarın surəti və nəzarətin Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı əsasında) günün istənilən vaxtı maneəsiz elektrik qurğularına buraxılmasını təmin etməyə;

12.15.9. elektrik enerjisinin *istehsalında, saxlanılmasında, ötürülməsində, paylanmasında, satışında, istehlakında və enerji effektivliyi sahəsində*, elektrik qurğularının layihələndirilməsində, tikintisində, yenidən qurulmasında, təmirində, həmçinin onların istismarında texniki istismar qaydalarının, təhlükəsizlik texnikası qaydalarının, elektrik qurğularının quraşdırılması qaydalarının və digər normativ sənədlərinin tələblərinə əməl olunmasında aşkar edilmiş pozuntu və çatışmazlıqların aradan qaldırılması haqqında *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* ~~səlahiyyətli nümayəndələrinin~~ tələbnamələrini müəyyən olunmuş müddətlərdə yerinə yetirməyə.[71]

12.16. Müstəqil enerji istehsalçısı ona məxsus elektrik stansiyasında elektrik və istilik qurğularının, avadanlığın zədələnməsi ilə əlaqədar baş verən qəzalar və yanğınlar, həmçinin elektrik cərəyanının təsirindən insanların xəsarət alması haqqında Azərbaycan Respublikasının Energetika *Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinə* və müvafiq dövlət orqanlarına məlumat verməyə borcludur.

Müstəqil enerji istehsalçısı müvafiq olaraq, dövlət elektroenergetika müəssisəsinə, yaxud enerjitəchizatı müəssisəsinə onlar arasındakı hesablaşma uçot cihazlarındakı və uçot sxemindəki pozuntular, həmçinin tikililərində və ya ərazisində yerləşən dövlət elektroenergetika müəssisəsinə və ya enerjitəchizatı müəssisəsinə məxsus elektrik qurğularındakı nasazlıqlar haqqında məlumat verməyə borcludur.

12.17. Müstəqil enerji istehsalçısı "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na və "Gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na əsasən ona məxsus elektrik qurğularının qorunmasını, onlara sərbəst keçməyi və yanaşmağı təmin etməli, kabel və hava elektrik verilişi xətlərinin mühafizə zonalarında hər hansı bir obyektin tikintisinə, materialların yığılmasına, kabel və hava xətləri mənsub olan təşkilatın icazəsi olmadan torpaq və tikinti işlərinin aparılmasına yol verməməlidir.

12.18. Müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi, yaxud enerjitəchizatı müəssisəsi arasında bu Qaydalardan irəli gələn məsələlər üzrə fikir aynlığı yarandıqda tərəflər Azərbaycan Respublikasının Energetika Nazirliyinə müraciət edə bilərlər.

"Elektrik enerjisindən istifadə qaydaları"na
1 nömrəli əlavə

**Enerjitəchizatı müəssisəsi ilə istehsal, dəmir yolu nəqliyyatı, elektrikləşdirilmiş şəhər nəqliyyatı müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli**

## MÜQAVİLƏSİ

Biz, aşağıda imza edənlər ____________________________________________
enerjitəchizatı müəssisəsi adından _______________________________________
(vəzifəsi)
_____________________________________________________ şəxsində və
(soyadı, adı, atasının adı)
__________________________________________________ abonent adından
__________________________________________________ şəxsində tərəflər
(vəzifəsi, soyadı, adı, atasının adı)
arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılır.

**Müqavilənin şərtləri**

Tərəflər elektrik enerjisinin alqı-satqısı və istehlakı ilə əlaqədar qarşılıqlı münasibətlərdə "Elektrik enerjisindən istifadə qaydaları"nı rəhbər tuturlar.

Abonentə illik buraxılacaq elektrik enerjisinin təxmini miqdarı _________ kVts və dəyəri ________ manat

I rüb ________ kVts III rüb _______ kVts
II rüb ________ kVts IV rüb _______ kVts

Subabonentlər daxil olmaqla abonentə illik buraxılacaq elektrik enerjisinin təxmini miqdarı
_______ kVts və dəyəri ________ manat
(subabonentlər haqqında məlumatlar bu müqaviləyə əlavə edilir).

3. İstifadəsinə icazə verilmiş (qoşulmuş) transformatorların gücü __________ kVA
4. kV gərginlikli tərəfdə qoşulmuş elektrik qəbuledicilərin gücü _________ kVt
5. Reaktiv gücün optimal səviyyəsi ____________ kVAr
6. Abonentin elektrik qurğularının etibarlılıq kateqoriyası ______________
7. Enerjitəchizatı müəssisəsi ilə abonent arasında elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti bu müqaviləyə əlavə olunmuş aktla müəyyən edilir.
8. Enerjitəchizatı müəssisəsi bu müqavilə ilə müəyyənləşdirilmiş elektrik enerjisinin göstəricilərinə uyğun olaraq abonenti elektrik enerjisi ilə təchiz edir.
9. Hesablaşma elektrik sayğacları: ___________________ kV gərginlik tərəfində
______________________________________________________________elektrik
qurğusunun adı, sayğac quraşdırıldığı yuvanın nömrəsi
______________________________________________________________elektrik

qurğusunun adı, sayğac quraşdırıldığı yuvanın nömrəsi

10. Elektrik enerjisinə görə hesablaşmalar yalnız tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmış hesablaşma elektrik sayğaclarının göstərişinə əsasən aparılır ( ölçü transformatorları vasitəsilə ölçü aparıldıqda onların əmsalı nəzərə alınmaqla). [72]

Abonentin baş transformatoru enerjitəchizatı müəssisəsinin elektrik veriliş xəttinə (EVX) bilavasitə qoşulduqda və hesablaşma elektrik sayğacı baş transformatordan sonra orta (alçaq) gərginlik tərəfində quraşdırıldıqda, abonentlə hesablaşmalarda hər 1 kVt saat elektrik enerjisinə görə ödəniş müvafiq olaraq ikidolaqlı transformatorlar üçün 1,03 və üçdolaqlı transformatorlar üçün 1,05 yüksəldici əmsala vurulmalıdır. Bu halda balans mənsubiyyəti sərhədindən hesablaşma elektrik sayğacı quraşdırılmış yerə qədər elektrik enerjisi itkisi (texnoloji sərfiyyat) hesabat yolu ilə _______________ kVts (hesablaşma dövrü üçün) müəyyən edilir, həmin elektrik enerjisi itkisinə görə abonentdən əlavə ödəniş tutulmur və o abonentə buraxılmış elektrik enerjisi ilə cəmlənir.

Hesablaşma elektrik sayğacları tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmadıqda, hesablaşma elektrik sayğacı quraşdırıldığı yerdən şəbəkənin balans mənsubiyyəti sərhədinə qədər elektrik enerjisi itkisi (texnoloji sərfiyyat) hesabat yolu ilə _____________________ kVts (hesablaşma dövrü üçün) müəyyən edilir və həmin elektrik enerjisi itkisi hesablaşma elektrik sayğacının göstərişinə əlavə edilir (yaxud çıxılır).

11. Elektrik enerjisinə görə hesablaşmalar _______________ istehlakçı qrupu üçün müəyyən edilmiş 1 kVts aktiv elektrik enerjisi ___________________ manat + (ƏDV) = _______________ manat tarif üzrə aparılır. Tarif qiymətləri tənzimləndikdə bu müqavilədə müvafiq dəyişikliklər edilir.

12. Elektrik enerjisinə görə hesablaşma dövrü 1 ay qəbul olunur.

Enerjitəchizatı müəssisəsi hesablaşma dövründə abonentə buraxılmış elektrik enerjisinə görə ödəniş sənədini növbəti hesabat dövrünün ( ayının) ____________________ dək abonentə təqdim edir, sonrakı bir ay müddətində hesablaşma dövründəki elektrik enerjisinin haqqı abonent tərəfindən ödənilir. ~~Abonent hər hansı bir səbəbdən, o cümlədən hesabında vəsait olmadığından ona təqdim edilmiş elektrik enerjisinə görə ödəniş sənədi üzrə ödənişi beş bank günü ərzində enerjitəchizatı müəssisəsinin hesabına köçürmədikdə, hər bir gün üçün ödəniş aparılan günədək ödəniş sənədindəki məbləğin 0,01% miqdarında enerjitəchizatı müəssisəsinə dəbbə (penya) ödəyir. Elektrik enerjisi borcuna görə enerjitəchizatı müəssisəsi üç gün əvvəl xəbərdar etməklə abonentin enerjitəchizatını dayandırmaq hüququna malikdir və enerjitəchizatı dayandırıldığı müddət üçün dəbbə ( penya) tutulmur.~~ [73]

13. Tərəflər arasında elektrik enerjisinə görə hesablaşma aparılması üçün nəzərdə tutulmuş hesablaşma elektrik sayğaclarının alınması, quraşdırılması, istismara qəbul edilməsi, standartların müəyyən etdiyi müddətlərdə plan üzrə dəyişdirilməsi və istismarı “Elektrik enerjisindən istifadə qaydaları”nın 7.6-cı bəndinə uyğun həyata keçirilir.

Hesablaşma elektrik sayğaclarının qorunmasına və işçi vəziyyətdə saxlanılmasına görə cavabdehlik onların quraşdırıldığı elektrik qurğusunun mülkiyyətçisinin ____________________üzərinə düşür.

14. Enerjitəchizatı müəssisəsinin elektrik şəbəkələrində təmir işlərinin aparılması ilə əlaqədar ehtiyat qida mənbəyi olmayan abonentin şəbəkədən açılması sayı və müddətləri

________________________________________________________________________________

(say və müddəti)

15. “Elektrik enerjisindən istifadə qaydaları”nın 4.1-ci bəndinə və müvafiq təlimata uyğun olaraq tərəflərin birgə hazırladığı enerjisistemdə güc, elektrik enerjisi çatışmazlığı ilə əlaqədar məhdudiyyət və birbaşa açılma qrafiklərinə əməl olunması abonent tərəfindən təmin olunur.

Qəzaların qarşısının alınması və ya ləğv edilməsi üçün enerjitəchizatı müəssisəsi istehlakçının (açılması insan həyatı üçün təhlükə yaradan, partlayışa, yanğına, məhsulun kütləvi zay olmasına, mürəkkəb texnoloji proseslərin pozulmasına və s. səbəb ola bilən elektrik qurğuları istisna olmaqla) elektrik qurğularım şəbəkədən açmaq hüququna malikdir.

16. Abonent tutduğu ərazidən, binadan köçdükdə, öz fəaliyyətini dayandırdıqda və ya ləğv edildikdə, o on gün əvvəl enerjitəchizatı müəssisəsinə elektrik enerjisinin alqı-satqı müqaviləsinin ləğv olunması barədə müraciət etməli və sonuncu günə qədər istifadə etdiyi elektrik enerjisinin haqqını ödəməlidir.

17. Abonent elektrik enerjisinin alqı-satqı müqaviləsindəki enerji göstəricilərini artırmaq və ya azaltmaq istədikdə, o bu barədə enerjitəchizatı müəssisəsinə bir ay əvvəl müraciət etməlidir. Enerjitəchizatı müəssisəsi abonentin müraciətinə on gün ərzində baxır və razılıq verdikdə elektrik enerjisinin alqı-satqı müqaviləsində uyğun dəyişikliklər edilir.

18. “Elektrik enerjisindən istifadə qaydaları”nın ~~9.12-ci bəndindəki hallara görə *Enerji Məsələlərini Tənzimləmə Agentliyinin* tələbinə əsasən və ya~~ *9.13-cü bəndindəki (9.13.3-cü (yalnız qəza işləri görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı hallarda) və 9.13.6-cı yarımbəndlərində nəzərdə tutulan hallar istisna olmaqla)* hallara görə enerjitəchizatı müəssisəsi əvvəlcədən xəbərdar etməklə abonentə elektrik enerjisi verilişini tam və ya qismən dayandıra bilər. [74]

18-1. Elektrik xətlərinin qanunsuz olaraq kəsilməsi və ya istehlakçıya “Elektrik enerjisindən istifadə Qaydaları”nın 9.13-cü bəndində nəzərdə tutulmuş hallarda (*9.13.3-cü (yalnız qəza işləri görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı hallarda) və 9.13.6-cı yarımbəndlərində* nəzərdə tutulan hallar istisna olmaqla) yazılı bildiriş göndərilmədən elektrik ~~və istilik~~ enerjisi verilməsinin dayandırılması qadağandır. [75]

19. Enerjitəchizatı müəssisəsinin abonent qarşısındakı məsuliyyəti “Elektrik enerjisindən istifadə qaydaları”nın 10-cu fəslinə uyğun müəyyən edilir.

20. Tərəflər arasında elektrik enerjisindən istifadədə mübahisəli məsələlər yarandıqda, enerjitəchizatı müəssisəsi və ya abonent məhkəməyə müraciət edə bilər.

21. Tərəflərin hüquqi ünvanlan və onların hesablaşma hesabları:

Enerjitəchizatı müəssisəsi _________________________________

(adı, ünvanı)

Bank rekvizitləri: H/h __________________

VÖEN: __________________

Kod: __________________

VÖEN: __________________

M/h No: __________________

Abonent ___________________________________

(adı, ünvanı)

Bank rekvizitləri: H/h __________________

VÖEN: ____________________
Kod: ____________________
VÖEN: ____________________
M/h : ____________________

22. Tərəflər öz rekvizitlərinin dəyişdirilməsi barədə vaxtında rəsmi yazılı məlumat verirlər.

23. Bu müqavilə iki nüsxədə tərtib olunmuşdur. Onlardan biri enerjitəchizatı müəssisəsinə, digəri isə abonentə verilir.

**İMZALAR:**

| **Enerjitəchizatı müəssisəsi** | **Abonent** |
| --- | --- |

"Elektrik enerjisindən istifadə qaydaları"na
2 nömrəli əlavə

**Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra-abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli**

**MÜQAVİLƏSİ**

Biz, aşağıda imza edənlər ____________________________________________
enerjitəchizatı müəssisəsi adından ____________________________________________
(vəzifəsi)
____________________________________________ şəxsində və
(soyadı, adı, atasının adı)
____________________________________________ abonent adından
____________________________________________ şəxsində tərəflər
(vəzifəsi, soyadı, adı, atasının adı)
arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılır.

**Müqavilənin şərtləri**

1. Tərəflər elektrik enerjisinin alqı-satqısı və istehlakı ilə əlaqədar qarşılıqlı münasibətlərdə "Elektrik enerjisindən istifadə qaydaları"nı rəhbər tuturlar.

2. Abonentə illik buraxılacaq elektrik enerjisinin təxmini miqdarı _________________ kVts və dəyəri _____________ manat

Subabonentlər daxil olmaqla abonentə illik buraxılacaq elektrik enerjisinin təxmini miqdarı _________ kVts və dəyəri _________________ manat

(subabonentlər haqqında məlumatlar bu müqaviləyə əlavə edilir).

3. İstifadəsinə icazə verilmiş (qoşulmuş) transformatorlann gücü ____________ kVA

4. kV gərginlikli tərəfdə qoşulmuş elektrik qəbuledicilərin gücü ____________ kVt

5. Abonentin elektrik qurğularının etibarlılıq kateqoriyası

6. Enerjitəchizatı müəssisəsi ilə abonent arasında elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti bu müqaviləyə əlavə olunmuş aktla müəyyən edilir.

7. Enerjitəchizatı müəssisəsi bu müqavilə ilə müəyyənləşdirilmiş elektrik enerjisinin göstəricilərinə uyğun olaraq abonenti elektrik enerjisi ilə təchiz edir.

8. Hesablaşma elektrik sayğacları: _______________ kV gərginlik tərəfində

____________________________________________
elektrik qurğusunun adı, sayğac quraşdırıldığı yuvanın nömrəsi
____________________________________________
elektrik qurğusunun adı, sayğac quraşdırıldığı yuvanın nömrəsi

9 . Elektrik enerjisinə görə hesablaşmalar yalnız tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmış hesablaşma elektrik sayğaclarının göstərişinə əsasən aparılır ( ölçü transformatorları vasitəsilə ölçü aparıldıqda onların əmsalı nəzərə alınmaqla).[76]

Abonentin baş transformatoru enerjitəchizatı müəssisəsinin elektrik veriliş xəttinə (EVX) bilavasitə qoşulduqda və hesablaşma elektrik sayğacı baş transformatordan sonra orta (alçaq) gərginlik tərəfində quraşdırıldıqda, abonentlə hesablaşmalarda hər 1 kVt saat elektrik enerjisinə görə ödəniş müvafiq olaraq, ikidolaqlı transformatorlar üçün 1,03 və üçdolaqlı transformatorlar üçün 1,05 yüksəldici əmsala vurulmalıdır, bu halda balans mənsubiyyəti sərhədindən hesablaşma elektrik sayğacı quraşdırılmış yerə qədər elektrik enerjisi itkisi (texnoloji sərfiyyat) hesabat yolu ilə _________________ kVts (hesablaşma dövrü üçün) müəyyən edilir, həmin elektrik enerjisi itkisinə görə abonentdən əlavə ödəniş tutulmur və o, abonentə buraxılmış elektrik enerjisi ilə cəmlənir.

Hesablaşma elektrik sayğacları tərəflərin elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədində quraşdırılmadıqda, hesablaşma elektrik sayğacı quraşdırıldığı yerdən şəbəkənin balans mənsubiyyəti sərhədinə qədər elektrik enerjisi itkisi ( texnoloji sərfiyyat) hesabat yolu ilə __________ kVts ( hesablaşma dövrü üçün) müəyyən edilir və həmin elektrik enerjisi itkisi hesablaşma elektrik sayğacının göstərişinə əlavə edilir (yaxud çıxılır).

10. Elektrik enerjisinə görə hesablaşmalar istehlakçı qrupu üçün müəyyən edilmiş 1 kVts aktiv elektrik enerjisi _______________ manat +(ƏDV) = _______________ manat tarif üzrə aparılır. Tarif qiymətləri tənzimləndikdə bu müqavilədə müvafiq dəyişikliklər edilir.

11. Elektrik enerjisinə görə hesablaşma dövrü 1 ay qəbul olunur.

